# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

## "Qarabağda turizm də sürətlə inkişaf etdirilir"




5

№ 138 (7306)

6 avqust 2025-ci il.
Qiymәti 60 qəpik

# Türk dünyasının siyasi gücü və iradəsi




2

*Prezident İlham Əliyev: "Türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir"*

# Böyük ZƏFƏR: xalqın qürur və namusunun xilasından ötən 5 il



14

## Borcunu qaytarmayanları hansı cinayət məsuliyyəti gözləyir?



16

## 33 il əvvəl tarixin bu günü



12

## İşıqfor altında düşüncələr...



8

## Yaddaşlarda və hafizələrdə iz qoyan insan - Misirxan Vəliyev



9

## Şuşanın musiqi tarixində Hacıbəylilər imzası



11




# Türk dünyasının siyasi gücü və iradəsi

## *Prezident İlham Əliyev: "Türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir"*

***Azərbaycanın bölgədə sülhün bərpası prosesində irəli sürdüyü təkliflər və təşəbbüslər istər region ölkələri, istərsə də dünya dövlətləri, eləcə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilməkdədir. Bu isə Azərbaycanın dünyanın müxtəlif qitələrində olan ölkələrlə əlaqələrinin müsbət dinamikada inkişafında mühüm rol oynayır. Mövcud münasibətlərin inkişafına nəzər salsaq görərik ki, Azərbaycan ilə türk dövlətləri arasında qarşılıqlı əməkdaşlıq münasibətləri yüksələn bir xətlə inkişafdadır və münasibətlər strateji əməkdaşlıq səviyyəsindədir. Bu möhkəm dostluq üzərində qurulub. Ölkələr arasında ikitərəfli münasibətlərin inkişafında dövlət başçılarının səfərləri xüsusilə böyük əhəmiyyətə malikdir.***

Türk dövlətləri və xalqları arasında siyasi-mədəni bağların möhkəmləndirilməsi yaşadığımız dövrdə yeni mərhələyə yüksəlib. Azərbaycan türk dövlətləri ilə konstruktiv tərəfdaşlıq münasibətlərinin qurulması ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindən biridir. Müasir dünyamızda türk dövlətləri arasında qurulan əməkdaşlıq daha da güclənib və yeni, daha düşünülmüş, praqmatik mərhələsinə start verilib.

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, "Azərbaycan həmişə türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da türk dünyasının birliyi amallarına sadiq qalacaq. 2009-cu ildə Naxçıvan Zirvə Görüşündən başlayaraq təşkilatımız böyük inkişaf yolu keçmişdir". Naxçıvan Sazişinə əsasən, müəyyən edilmiş əsas fəaliyyət məqsədləri və vəzifələri, tərəflər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, regionda və dünyada sülhün bərqərar edilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviq edilməsi, beynəlxalq terrorizm, ortaq maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsi və s. məsələlərə önəm verilir. Naxçıvan sazişinin imzalanmasından keçən dövr ərzində görülən işlər, qarşılıqlı səfərlər türk dövlətləri arasında inteqrasiyanı dərinləşdirmək üçün səmərəli platformaya çevrilib. Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına Sədrlik dövründə türk dünyasının birləşməsinə böyük töhfələrini verdi. Azərbaycan Respublikasının Prezidenti, Türk Şurasının Sədri İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün keçirilməsi və bu görüşün koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunması dövlət başçıları səviyyəsində pandemiya ilə bağlı Zirvə görüşünü keçirən ilk beynəlxalq tədbir kimi tarixə düşdü.

### "BİR-BİRİMİZİN MİLLİ MARAQLARINI NƏZƏRƏ ALARAQ BUNDAN SONRA DA QARŞILIQLI DƏSTƏK VƏ HƏMRƏYLİK GÖSTƏRMƏLİYİK"

"Türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malikdir"-deyən Prezident türk dünyasının böyük bir ailə olduğunu bildirib: "Bir-birimizin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq".

Dövlət başçısının sözlərinə əsasən, Türk Dövlətləri Təşkilatının üzvləri olan ölkələrdən kənarda yaşayan soydaşlarımızın hüquqlarının, təhlükəsizliyinin, milli kimliyinin qorunması, onların assimilyasiyaya uğramaması kimi məsələləri artıq təşkilat çərçivəsində daimi əsasda diqqətdə saxlamağın vaxtı çatıb: "Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır. Əfsuslar olsun ki, Azərbaycan dövlətinin hüdudlarından kənarda yaşayan 40 milyon azərbaycanlının əksəriyyəti bu imkanlardan məhrumdur. Türk dövlətlərindən kənarda yaşayan soydaşlarımızın öz ana dilində təhsil almaları daim təşkilatın gündəliyində olmalıdır. Bu istiqamətdə lazımi addımlar atılmalıdır".

Real mənzərə onu deməyə əsasa verir ki, türk birliyi qlobal gücə çevrilib və türkdilli dövlətlərin mövcud sıx əlaqələri əməkdaşlığın daha da gücləndirilməsinə müsbət təsirini göstərəcəkdir. Qeyd edək ki, bu gün türkdilli ölkələrin siyasi fəallığı dünya siyasətinin gündəliyinin müəyyən edilməsinə getdikcə daha çox təsir göstərir. Türkdilli dövlətlər arasında səmərəli, etibarlı siyasi dialoq qurulub, bütün sahələrdə hərtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçirilir. Türkdilli ölkələrin vahid platformada birləşməsi bu ölkələr arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın yüksələn xətlə inkişafına təkandır.

### "BİZ HAMIMIZ ƏNƏNƏVİ DƏYƏRLƏR ÜZƏRİNDƏ ÖLKƏLƏRİMİZİ İNKİŞAF ETDİRİRİK"

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşünü xüsusilə qeyd etməliyik. Qəbul olunan tarixi qərarlarla yadda qaldı. Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının "Türk Dövlətləri Təşkilatı"na dəyişdirilməsi haqqında Qərar, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi haqqında Qərar, Azərbaycan Respublikası Prezidentinin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi haqqında Qərar, Türk Şurası VIII Zirvə Görüşünün Bəyannaməsi, "Türk dünyasına baxış – 2040" sənədinin qəbulu ilə bağlı Qərar, "Türk dünyasının birliyinə verdiyi töhfələrə görə" Türk Dövlətləri Təşkilatının Əlişir Nəvai adına Beynəlxalq Mükafatı haqqında Qərar, Türk Dövlətləri Təşkilatında müşahidəçi status haqqında qaydalara dair Qərar və digər qərarların imzalanması tarixi hadisə olaraq əhəmiyyət daşıyır. Cənab Prezident Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşünün tarixi əhəmiyyətinə toxunaraq bildirib ki, biz Şuramızı təşkilata çeviririk və bu təşkilatın çox gözəl gələcəyi var: "Çünki bu təşkilatın təməlində təbii müttəfiqlər yerləşir və həm tarix, həm mədəniyyət, həm bizim ənənələrimiz, bizim adət-ənənələrimiz, bax, bu, birliyi diktə edir. Eyni zamanda, indiki dünyada təhlükələr hər ay, hər il yaranır və əfsuslar olsun ki, dünyanın aparıcı ölkələri bu təhlükələrə qarşı düzgün addımlar ata bilmirlər və əminəm ki, Türk Dövlətləri Təşkilatının təkcə ölkələrimiz, xalqlarımız üçün deyil, dünya üçün önəmi bundan sonra da artacaq. Çünki bizim işbirliyimiz səmimidir, biz hamımız qardaşıq, bir-birimizə qardaş deyirik, biz hamımız ənənəvi dəyərlər üzərində ölkələrimizi inkişaf etdiririk". Vurğulamaq yerinə düşər ki, Azərbaycanın iqtisadi inkişafı regionda həyata keçirilən transmilli layihələrin uğurla reallaşmasına gətirib çıxarıb. İstismara verilən Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri Xəzər neftini və qazını dünya bazarlarına çıxarır. Orta Asiyanın karbohidrogen ehtiyatları Xəzər dənizi və Azərbaycan vasitəsi ilə dünya bazarlarına nəql edilir. Aktau və Bakı dəniz limanları arasında gəmi daşınmalarının inkişafını da vurğulamalıyıq. 2013-cü ildə Bakı, Aktau və Samsun beynəlxalq dəniz limanları arasında Türk qardaş limanları haqqında Anlaşma Memorandumu imzalanmışdır. Aktau və Bakı dəniz limanları arasında gəmi daşınmaları inkişaf etməkdədir. Bakı–Aktau bərə yolu ilə neftlə yanaşı dəmir yol vaqonları, avtomobil, taxıl və s. Yüklərin daşınmaları da yerinə yetirilir. Aktau portundan Qazaxıstanın şimalını birləşdirən 400 km-lik dəmir yolu kənd təsərrüfatı məhsulları və s.-nin daşınmasını xeyli səmərəli edir. Bütün bu layihələr qədim İpək Yolunun bərpası və türk əməkdaşlığı çərçivəsində ticarət və sərmayə əməkdaşlığının gələcək inkişafı məqsədi ilə həyata keçirilib. Türkdilli dövlətlərarası irimiqyaslı infrastruktur layihələri də reallaşdırılıb və bu davamlıdır. Hazırda bir sıra böyükmiqyaslı layihələr həyata keçirilməkdədir.

### TÜRK DÜNYASI VAHİD MƏSLƏK ƏTRAFINDA

TDŞ hər zaman Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəkləmiş və 2020-ci ilin iyul ayında baş vermiş Tovuz hadisələri və 27 sentyabr tarixindən başlayaraq, Ermənistan tərəfindən həyata keçirilən təxribatlarla bağlı mütəmadi olaraq bəyanatlar vermişdir. TDŞ-in baş katibi 2020-ci ilin 20 oktyabr tarixində Gəncə şəhərini ziyarət etmiş, Ermənistan tərəfindən Gəncənin raket atəşinə tutulması ilə bağlı Türk dünyası adından həmrəyliyi nümayiş etdirən bəyanatla çıxış etmişdir. İşğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması layihələrinə Türk Şurasına üzv və müşahidəçi ölkələrdən olan şirkətlər və iş adamları maraq göstərir, bu xüsusda 2021-ci il sentyabrın 10-da Bakı şəhərində "Azərbaycanın işğaldan azad edilmiş Qarabağ regionunun bərpasına və inkişafına həsr olunmuş" biznes forum keçirilmişdir. Türkdilli dövlətlər arasında media sahəsində əməkdaşlıq da olduqca önəmlidir. Belə ki, Azərbaycan və Türkiyə arasında artıq media platforması yaradılmışdır.

Ən çətin anlarda türk dünyası Azərbaycanın yanındadır. Türk Dövlətləri Parlament Assambleyasının Katibliyi Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində insan tələfatı və yaralanması ilə nəticələnən hərbi təxribatı qətiyyətlə qınayıb. TÜRKPA beynəlxalq hüququn norma və prinsiplərinə sadiqliyini və qardaş Azərbaycanın ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına güclü dəstəyini bir daha təsdiq edərək, Cənubi Qafqazda davamlı sülh və sabitlik naminə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün səylərin əhəmiyyətini vurğulayır. Əlbəttə ki, bütün bunlar türk dünyasını vahid bir məslək ətrafında birləşdiyinin təcəssümüdür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Türkmənistanda üçtərəfli görüş keçirilib




***Avqustun 5-də Avazada Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov arasında üçtərəfli görüş keçirilib. Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, Ə.Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Türkmənistan Xalq Məsləhətinin sədrinə və Özbəkistanın dövlət başçısına çatdırıb.***

Qurbanqulu Berdiməhəmmədov və Şavkat Mirziyoyev Prezident İlham Əliyevin salamlarına görə minnətdarlıqlarını bildiriblər, onların da salamlarını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş ediblər.

Qurbanqulu Berdiməhəmmədov və Şavkat Mirziyoyev Azərbaycanın Mərkəzi Asiya ölkələri ailəsində, Dövlət başçılarının Məşvərət şurasında xüsusi yerinin olduğunu, Azərbaycan Prezidentinin bu istiqamətdə çox iş gördüyünü vurğulayıb və Azərbaycanın region ölkələri ilə birlikdə Avrasiya, habelə bütün dünya üçün böyük əhəmiyyət kəsb etdiyini bildiriblər. Q.Berdiməhəmmədov Mərkəzi Asiya ölkələri və Azərbaycan formatının artıq faktiki olaraq mövcudluğunu, bu əməkdaşlığın günün tələbinə çevrildiyini və bu formatın daimi praktikaya çevrilməsinin zəruriliyini qeyd edib.

Türkmənistan Xalq Məsləhətinin sədri Prezident İlham Əliyevin Azərbaycan-Türkmənistan-Özbəkistan formatında əməkdaşlığı vacib saydığını qeyd edib və bu görüşü belə bir yeni formatın əsasının qoyulması kimi qiymətləndirib.

Üçtərəfli formatın ilk görüşündə humanitar, mədəni əlaqələrin inkişafının vacibliyi və iqtisadi əməkdaşlıq mövzuları müzakirə edilib. İqtisadi sahədə ən aktual istiqamətlər kimi nəqliyyat, logistika, enerji sektorlarında strateji əməkdaşlığın daha da genişləndirilməsinə qarşılıqlı maraq ifadə olunub.

Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Azərbaycanda səfərdə olarkən Prezident İlham Əliyev ilə Füzuli rayonunda məscidin tikintisi, habelə Füzuli və Arxadağ şəhərlərinin qardaşlaşması ilə bağlı razılığın əldə olunduğunu bildirib.



# Professor: Azərbaycan qazının Suriyaya nəqli regional enerji diplomatiyasında tarixi addımdır



Türkiyə dövləti hər zaman yerləşdiyi coğrafiyada, eləcə də beynəlxalq aləmdə hüquq normaları və diplomatiyanı ön planda tutaraq sülhün və sabitliyin qətiyyətli müdafiəçisi kimi çıxış edib. Bu baxış bucağına uyğun olaraq avqustun 2-dən etibarən Azərbaycan qazının Türkiyənin Kilis şəhəri üzərindən Suriyanın Hələb vilayətinə ötürülməsinə başlanılıb ki, bu da regional enerji diplomatiyasında atılan tarixi bir addımdır. Bu addım yalnız əsas həyat ehtiyaclarının ödənilməsinə deyil, eyni zamanda, Suriyanın münaqişədən sonrakı bərpa prosesinə konkret töhfə verməkdədir. Hazırda bir çox bölgədə gündə cəmi 3-4 saat elektrik verilə bilən bir ölkədə bu miqyasda enerji təminatı həm həyat keyfiyyətində birbaşa yaxşılaşma yaradacaq, həm də əhalinin əsas xidmətlərə çıxışını asanlaşdıracaq.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Ankara Hacı Bayram Veli Universitetinin professoru, Türkiyənin SETA-Siyasi, İqtisadi və İctimai Araşdırmalar Vəqfinin tədqiqatçısı Erman Akıllı bildirib.

Türkiyə ilə Azərbaycan arasındakı bu strateji əməkdaşlığı yalnız iqtisadi deyil, həm də sülhyönümlü xarici siyasət yanaşmasının məhsulu kimi qiymətləndirən şərhçi deyib: "Təmin olunan enerji ilə birlikdə sənaye və istehsal infrastrukturunun yenidən canlanması, kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətə başlaması, yerli məşğulluğun artması kimi müsbət iqtisadi təsirlər gözlənilir. Lakin ən önəmlisi bu, enerji diplomatiyasının regional sülh və sabitliyin qurulmasına verəcəyi töhfədir. Türkiyə və Azərbaycan bu addımla yalnız iki qardaş ölkə arasındakı həmrəyliyi möhkəmləndirmir, eyni zamanda, qonşu xalqlara qarşı məsuliyyət hissi ilə hərəkət etdiklərini də göstərirlər. Türkiyənin liderliyi ilə həyata keçirilən bu enerji transferi Suriya xalqının yenidən ayağa qalxmasına dəstək olmaqla yanaşı, regional sabitliyin iqtisadi təməlini gücləndirir və davamlı sülhə gedən yolu enerji və inkişaf əsasında qurur".

Erman Akıllı bu layihənin, eyni zamanda, Türkiyəni təkcə enerji ixrac edən bir aktor deyil, həm də regional sülh və rifahı təmin edən aparıcı bir dövlət kimi ön plana çıxardığını qeyd edib.

# Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsi yenidən qurulacaq



Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsinin yenidən qurulması və bərpası ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Naxçıvan Muxtar Respublikasında paylayıcı elektrik şəbəkəsinin dayanıqlılığının təmin edilməsi, bu sahədə infrastrukturun daha da yaxşılaşdırılması, istehlakçıların enerji təchizatının səmərəliliyinin və keyfiyyətinin artırılması məqsədilə "Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsinin yenidən qurulmasına və bərpasına dair 2026–2030-cu illər üçün Tədbirlər Planı" təsdiqlənəcək. "Azərişıq" Açıq

## SƏRƏNCAM

Səhmdar Cəmiyyəti Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etməli və icranın gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti isə Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə növbəti illərdə dövlət büdcəsi layihələrində tələb olunan maliyyə vəsaitinin nəzərdə tutulması üçün zəruri tədbirlər görməli, eyni zamanda, bu Sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir.

# Dənizə çıxışı olmayanlar

***Avropa və Asiyanın dənizə çıxışı olmayan, inkişaf etməkdə olan ölkələri (LLDC) inkişaf yolu təyin etmək üçün zaman-zaman bir araya gəlir və çıxış yolları arayırlar. Onlar dənizə birbaşa çıxışın olmaması, coğrafi uzaqlıq, habelə dünya ticarəti və qlobal dəyər zəncirləri ilə inteqrasiyanın olmamasından irəli gələn mürəkkəb inkişaf problemləri, yüksək ticarət xərcləri, məhdud nəqliyyat infrastrukturu, eləcə də çətin sərhəd və gömrük qaydaları ilə üzləşirlər. Bu amillər də onların ixrac əməliyyatlarında rəqabət qabiliyyətini zəiflədir və iqtisadi artımına mane olur.***




*Türkmənistanın Avaza şəhərində bu dövlətlərin Üçüncü Konfransı işə başlayıb*

Əlbəttə, problemlər ciddidir, amma Avropa və Asiyanın LLDC-ləri üçün inkişaf yolunu yenidən formalaşdırmaq üzrə bir fürsət pəncərəsi mövcuddur. Dünya liderləri LLDC-lərdə yaşayan yarım milyarddan çox insanın dolanışıq imkanlarını yaxşılaşdırmaq məqsədilə yeni fəaliyyət proqramını razılaşdırmaq üçün toplaşırlar. Bir pəncərəli sərhəd postları, SMART dəhlizlər və intellektual nəqliyyat sistemləri (İTS) kimi səmərəli sərhəd infrastrukturunun yaradılması da onların ticarəti artırması üçün heç də az əhəmiyyətli deyil. Bu tədbirlər malların hərəkətini asanlaşdırmaq və sürətləndirməklə yanaşı, məhdudiyyətlər və ticarət xərclərini azaltmaq potensialına malikdir. Mərkəzi Asiyada qədim İpək Yolu ticarətinin əsas seqmenti kimi tarixi əhəmiyyətə malik olan altı LLDC – Əfqanıstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan – Çin, Avropa və digər regionlar arasında malların daşınması üçün tranzit ölkələr kimi hələ də mühüm rol oynayır. Bu ölkələrdə nəqliyyat şəbəkələri və logistika infrastrukturunun inkişafı bütün regionda ticarətə müsbət təsir göstərəcək.

Avqustun 5-də Türkmənistanın Xəzər sahilindəki Avaza kurort zonasında BMT-nin Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr (LLDC) üzrə Üçüncü Konfransı işə başlayıb. Hər 10 ildən bir keçirilən forumun məqsədi iqtisadiyyatları dəniz ticarət yollarına birbaşa çıxışın olmaması ilə məhdudlaşan 32 inkişaf etməkdə olan ölkəyə yeni imkanlar təqdim etməklə qlobal ticarət sisteminin yenidən qurulmasıdır. Dörd gün davam edəcək iclasda BMT-nin baş katibi Antonio Quterreş iştirak edir.

Bir gün əvvəl Türkmənbaşı hava limanı yüksək səviyyəli qonaqlarla çoxlu çarter reysləri qəbul edib. Onların arasında 20 dövlətin rəhbərləri, nazirlər, investorlar və ictimai təşkilatların rəhbərləri var. BMT-nin Baş katibi Antonio Quterreşi Türkmənistanın Ümummilli Lideri, Xalq Məsləhətinin (Xalq Şurasının) sədri Qurbanqulu Berdiməhəmmədov qarşılayıb.

Bazar günü Avazada BMT və Türkmənistanın bayraqlarının qaldırılması ilə bağlı rəsmi mərasim keçirilib. "Avaza xoş gəlmisiniz! Konfransın bütün iştirakçılarına uğurlar arzulayıram!". Bu barədə Türkmənistanın xarici işlər naziri Rəşid Meredov çıxışında bildirib.

Türkmənistanın BMT-dəki daimi nümayəndəsi Aksoltan Atayeva qeyd edib ki, forumun yekunu üzrə iştirakçılar "2024-2034-cü illər üçün Avaza Fəaliyyət Proqramı"nı qəbul edəcəklər, onun həyata keçirilməsi dənizə çıxışı olmayan ölkələrin uğurlu iqtisadi və davamlı inkişafına töhfə verəcək, həmçinin Siyasi Bəyannamə qəbul ediləcək.

Dəniz və okeanlara çıxışı olmayan 44 ölkə var ki, onlardan 32-si inkişaf etməkdədir. Onların arasında bir sıra MDB ölkələri - Mərkəzi Asiya ölkələri, Ermənistan və Belarus var. Coğrafi yerləşməsinə görə belə ölkələr üçün ticarət əməliyyatları orta hesabla 74% baha başa gəlir və sərhədyanı logistika sahilyanı ölkələrlə müqayisədə iki dəfə çox vaxt aparır. Belə ölkələr dünya ticarətinin cəmi 1,2%-ni təşkil edir ki, bu da qlobal iqtisadi tərəqqidən geri qalma riskini artırır.




BMT-nin dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üzrə ali nümayəndəsi Rabab Fatimə konfransı mənfi tendensiyaları aradan qaldırmaq üçün əsas fürsət adlandırıb. Konfrans iştirakçıları daha azad tranzitə nail olmaq, effektiv ticarət dəhlizləri yaratmaq, iqtisadi dayanıqlığı artırmaq və sabit maliyyələşdirməni təmin etmək üçün variantları axtaracaqlar. Məsələn, Belarus dənizə çıxışla bağlı problemlər barədə qəti bəyanat vermək üçün BMT platformasından istifadə etmək niyyətindədir. Xarici İşlər Nazirliyinin mətbuat katibi Anatoli Qlazın sözlərinə görə, ölkə BMT Konvensiyasında təsbit olunmuş dənizə çıxış və tranzit hüququnu pozan məhdudlaşdırıcı tədbirlərin nəticələrini hiss edir. "Belarus bir sıra dövlətləri beynəlxalq öhdəliklərini yerinə yetirməyə məcbur etmək niyyətindədir", - Qlaz qeyd edib.



"Belarusun qanuni hüquqlarının layiqli səviyyədə həyata keçirilməsində üzləşdiyi problemlərə diqqət yetirməyin vaxtı çatıb", - Anatoli Qlaz bildirib. "Ola bilsin ki, biz əvvəllər bu məsələyə lazımi diqqət yetirmirdik, amma indi vəziyyət bərbad hala düşüb. Xüsusilə Baltikyanı ölkələr ölkəmizin dənizə çıxışını bilərəkdən məhdudlaşdırır, xarici aləmlə ticarət, iqtisadi və humanitar təmaslara mane olurlar. Bu dövlətlər öz coğrafi mövqelərindən hüquqi baxımdan açıq şəkildə sui-istifadə edirlər". Nümunə olaraq Anatoli Qlaz Litva, Latviya və Estoniya tərəfindən Belarus kalium gübrələrinin ixracına qoyulan qadağaları xatırladıb. O vurğulayıb ki, Belarus tərəfində Klaypeda limanındakı terminalların 30%-nə sahiblik kimi liman obyektlərinin olmasına baxmayaraq, tətbiq edilən məhdudiyyətlər dünya qiymətlərinin artmasına və gübrə çatışmazlığına gətirib çıxarır. Bu da öz növbəsində artıq ərzaq təhlükəsizliyinin təmin edilməsində çətinlik çəkən üçüncü ölkələrə mənfi təsir göstərir. Ermənistan prezidenti Vaaqn Xaçaturyan konfransda respublika üçün aktual əhəmiyyət kəsb edən tranzit və nəqliyyat əlaqələrinin inkişafını müzakirə etmək niyyətindədir.

Mərkəzi Asiyadakı bir sıra BMT proqram və layihələrində iştirak etmiş ekspert Derya Qarayev deyib: "Budəfəki konfrans dərin tənəzzüldə olan və nəinki yeni mənalar yaratmaq, həm də daim ortaya çıxan böhran və çağırışlara cavab vermək qabiliyyətini itirmiş BMT-nin digər nəticəsiz hadisələridir. BMT bürokratiyasının yuxarı və orta səviyyələrində kreativliyin olmaması və daha da vacibi, məsuliyyət hissi və reallıq hissinin itirilməsi, sürətlə dəyişən siyasi reallıqları və ya onların yaratdığı əlavə riskləri nəzərə almayan, yalan hekayələr və hətta bütün konsepsiyalarla, məsələn, Davamlı İnkişaf Məqsədləri ilə nəticələnir. Onlar sadəcə olaraq BMT-nin bütün spekulyasiyalarını inkar edir".

Ekspertin fikrincə, Mərkəzi Asiya şəraiti üçün Əfqanıstan Koş-Təpə kanalının, Tacikistanda Roqun su elektrik stansiyasının tikintisinin, eləcə də bütün BMT-nin dəniz səviyyəsinin aşağı salınması kimi layihələrin yaratdığı risklər elementar təqlid üçün çərçivəsinin zərəri çox böyükdür. "BMT bürokratiyası həqiqətən də kəskin problem və çağırışları başa düşmək, onların aradan qaldırılması üçün təsirli tədbirlər görmək əvəzinə, əslində, həm region ölkələrinin hakimiyyət orqanlarını, həm də cəmiyyətlərini, daha geniş şəkildə desək, hazırda BMT-nin əsas fokus qrupu olan inkişaf etməkdə olan ölkələrin bütün icmalarını yanlış məlumatlandırır, onlara bir neçə növ ideoloji nəticələri təqdim edən və BMT-nin o vaxtkı heç bir ideoloji nəticələrini gətirməyən hesabatlar təklif edir. İqtisadiyyat, ekologiya, sosiologiya və s. çox sayda psevdoekspertin boşuna (və pul kisəsini) təmin etməkdən başqa, həm beynəlxalq, həm də milli səviyyədə BMT baş katibinin özünün, keçən həftə BMT-nin hesabatlarını heç kimin oxumadığını, hətta onları təşkilatın saytından yükləmək belə, onların heç bir məna kəsb etmədiyinə zəmanət vermir".

Lakin bu, hər bir dövlətin suveren hüququdur. Bununla belə, həm təhlükəsizliyin, həm də inkişafın təmin edilməsi üçün digər, daha effektiv mexanizmlər üzərində düşünmək vacibdir. Təşkilatçılar Avazadakı bu tədbirin aktivlərinə BMT-nin fəaliyyəti ilə heç bir əlaqəsi olmayan digər, çoxdan mövcud olan nəqliyyat, logistika və digər layihələri bir daha vurğulamalıdırlar. Kənar mənalar və ideyalarla doldurulmalı olan bu cür hadisələrin uyğunsuzluğu, çox vaxt bir-birinə zidd-diyyət təşkil edir.

**V.VƏLİYEV**

ANALİTİK

# “Qarabağda turizm də sürətlə inkişaf etdirilir”



MÜNASİBƏT

“Qarabağ işğaldan azad edildikdən dərhal sonra Prezident, Ali Baş Komandan İlham Əliyevin qarşıya qoyduğu prioritet məsələ Böyük Qayıdış prosesinin sürətləndirilməsi oldu. Ona görə ”başladılması” yox, məhz ”sürətləndirilməsi” deyirəm ki, Qarabağa qayıdış 44 günlük Vətən müharibəsindən bir neçə il əvvəl - 2016-cı ildə həyata keçirilmiş Aprel Döyüşlərindən sonra Cocuq Mərcanlı kəndinə köçlə başlayıb”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Elşad Məmmədli deyib.Elşad Məmmədli sözlərinə belə davam edib: “2016-cı ilin Aprel döyüşlərində Lələtəpə yüksəkliyi azad edildi, bundan sonra Cocuq Mərcanlı kəndini ermənilərin davamlı atəş altında saxlamasına son qoyuldu. Bunun ardınca Cənab İlham Əliyev Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı sərəncam imzaladı. İlkin olaraq 50 mənzil və 100 yerlik məktəb binası tikildi, müvafiq infrastruktur yaradıldı. Ərazi minalardan təmizləndi, ordumuz, güc strukturlarımız tərəfindən bütün təhlükəsizlik tədbirləri həyata keçirildi, qısa müddət ərzində Cocuq Mərcanlı sakinləri kəndlərinə köçürüldülər. Yəni Qayıdış o zamandan start götürmüşdü. 44 günlük Vətən Müharibəsindən sonra azad edilmiş ərazilərdə sürətli bərpa, quruculuq işlərinə start verildi.19 iyul 2022-ci il tarixində Zəngilan rayonunun Ağalı kəndində ”ağıllı kənd” konsepsiyası ilə salınan yaşayış məntəqəsinə köçürülmə həyata keçirildi, 30 ilə yaxın həsrətdən sonra insanlarımız öz doğma yurdlarına qayıtdılar. Daha sonra Şuşa, Laçın, Cəbrayıl, Füzuli, Kəlbəcər, Xocavənddə mərhələli



şəkildə məskunlaşma həyata keçirilməyə başladı. 2023-cü ilin sentyabrında Xankəndi, Ağdərə, Xocalı, Əsgəran və Xocavəndin bir hissəsində keçirilən 1 günlük antiterror əməliyyatları ilə buradakı separatçı rejimin qalıqları məhv edildi və bildiyimiz proseslər baş verdi.Dərhal da Xankəndi, Xocalıda abadlıq, bərpa işləri aparıldı. Tez bir zamanda Xankəndidə Qarabağ Universiteti fəaliyyətə başladı, ardınca Xocalı sakinlərinin də öz doğma yurd-yuvasına qaytarılmasına start verildi.

Son məlumata görə bugünədək Qarabağa 4000 minə yaxın ailə köçürülüb. Ümumilkdə Qarabağda məskunlaşan (yəni həm ailələr, həm burada müxtəlif işlərdə işləməyə gələn, o cümlədən Qarabağ universitetinin tələbə-müəllim heyəti ilə birlikdə) əhalinin sayı 40 min nəfərdən çoxdur.




Vurğulayım ki, mən 2024-cü ilin payızında işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa həsr olunmuş ”Qürur dolu qayıdış” adlı (https://youtu.be/fP6HiWdH5mY) qısametrajlı film çəkmişəm. Film çəkilişi zamanı demək olar ki, bütün Qarabağda qayıdış prosesini, bölgənin necə canlanmasını, təhlükəsizliyin necə yüksək səviyyədə təşkilini müşahidə etmişik və bunlar filmdə əksini tapıb. Eyni zamanda artıq 2 ildir Qarabağda turizm də sürətlə inkişaf etdirilir, xeyli adam istirahət, ziyarət üçün bura üz tutur. İnsanların daha rahat gediş-gəlişi üçün işğaldan azad edilmiş ərazilərə buraxılış-icazəni artıq dəqiqələr içərisində e-polis sistemi üzərindən də həyata keçirmək olur.Qarabağda insanların təhlükəsiz yaşaması, ziyarəti üçün bütün zəruri addımlar atılıb və atılmaqda davam edir. Polis, ordu üzərinə düşən bütün işləri layiqincə görür. Qarabağda təhlükəsizliklə bağlı narahatedici bir məqam ermənilərin xislətlərinə uyğun ”miras” qoyub getdiyi və davam edən mina terrorudur. Əlbəttə, məskunlaşma həyata keçirilən ərazilərdə mina təhlükəsi tam aradan qaldırılıb. Digər ərazilərdə isə sürətlə bu proses həyata keçirilir. Hesab edirəm dünyanın müvafiq təşkilatları bu prosesə böyük dəstək verməlidir”.

***Ayşən Vəli***

# “Azərbaycanın Hərbi Dəniz Donanması peşəkarlığı ilə seçilir”

“Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin müxtəlif sahələrində çalışan hərbçilər yüksək qəhrəmanlıq və peşəkarlıq nümayiş etdirdilər”. Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Şair Ramaldanov deyib. O bildirib ki, xüsusilə də Azərbaycan Hərbi Dəniz Donanmasının xüsusi təyinatlıları bu müharibədə misilsiz şücaət göstərərək öz vəzifələrinin öhdəsindən böyük fədakarlıqla gəldilər: ”Onların yüksək döyüş qabiliyyəti, taktiki hazırlığı və vətənpərvərlik ruhu ölkənin dəniz təhlükəsizliyinin təminində mühüm rol oynadı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev hərbi dəniz qüvvələrinin inkişafını və müasirləşməsini prioritet istiqamətlərdən biri kimi müəyyən edib. Məhz onun rəhbərliyi ilə son illərdə Azərbaycan Hərbi Dəniz Donanmasının texniki və madditexniki bazası gücləndirilib, döyüş gəmiləri və hərbi dəniz





avadanlıqları müasir standartlara cavab verən səviyyəyə çatdırılıb. Hazırda Azərbaycan Hərbi Dəniz Donanması Xəzər dənizində keçirilən beynəlxalq hərbi təlimlərdə mütəmadi olaraq iştirak edir. Bu təlimlər zamanı heyətin yüksək səviyyəli döyüş hazırlığı və taktiki bacarıqları nümayiş olunur. Dənizçilərimiz beynəlxalq mühitdə də öz bilik və bacarıqlarını sübut edərək regionda sülh və sabitliyin qorunmasına töhfə verirlər.

Donanma heyəti daim yüksək peşəkarlıq səviyyəsi ilə seçilir. Onlar öz fiziki və nəzəri hazırlıqlarını artırmaq üçün mütəmadi olaraq təlimlərdə və praktiki məşğələlərdə iştirak edirlər. Xüsusilə qardaş Türkiyənin Hərbi Dəniz Donanması ilə birgə keçirilən təlimlər təcrübə mübadiləsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu əməkdaşlıq hər iki ölkənin hərbi dəniz qüvvələrinin inteqrasiya səviyyəsini artırmaqla yanaşı, regionun təhlükəsizliyinə də mühüm töhfə verir.

Bu gün Azərbaycanın Hərbi Dəniz Donanması həm müasir döyüş gəmiləri, həm də intellektual və texniki cəhətdən hazırlıqlı heyətlə təchiz olunub. Donanma qarşıya qoyulan hərbi tapşırıqları icra etməyə tam hazır və qadirdir”.

Eyni zamanda o qeyd edib ki, Azərbaycanın enerji təhlükəsizliyində Hərbi Dəniz Donanmasının rolu xüsusilə önəmlidir. Bildiyimiz kimi, ölkənin əsas enerji mənbəyi olan neft ehtiyatları məhz Xəzər dənizində yerləşən yataqlardan çıxarılır. Bu baxımdan, Azərbaycanın neft-qaz infrastrukturu və dəniz sərhədlərinin qorunması donanmanın qarşısında duran əsas vəzifələrdəndir. Donanma Dövlət Sərhəd Xidməti ilə sıx əməkdaşlıq edərək dəniz ərazilərimizin təhlükəsizliyini təmin edir, təxribat və qanunsuz fəaliyyətlərin qarşısının alınmasında aktiv rol oynayır.

Azərbaycanın Hərbi Dəniz Donanması artıq yalnız regional deyil, beynəlxalq arenada da öz gücünü, çevikliyini və peşəkarlığını nümayiş etdirir. Bu gün donanma heyəti ən son texnologiyalarla təchiz olunmuş döyüş gəmilərində xidmət edir. Gənc, yüksək təhsilli, intellektual səviyyəsi və vətənpərvərlik ruhu ilə seçilən hərbi qulluqçular Azərbaycanın suverenliyinin, dəniz sərhədlərinin və enerji təhlükəsizliyinin təminatında qürurla xidmət edirlər.

***Günel Fərzəliyeva***

# Diaspora gəncləri Xankəndidə

***Bu gün ölkəmizdə keçirilən istənilən tədbir hər bir azərbaycanlını qürurlandırır. Zəfər qazanmış Azərbaycanda keçirilən tədbirlərdə dünyanın müxtəlif ölkələrindən gələn dini və irqi fərqli insanlar nailiyyətlərimizin, Qələbəmizin şahidinə çevrilirlər. 44 günlük Vətən müharibəsində milli birliyimiz, xalq-iqtidar birliyi bizi qələbəyə apardığı kimi, yaxın gələcəkdə Azərbaycanın daha da gücünü artıracaqdır.***

Müharibədən sonra yaranmış yeni reallıqların, tarixi Zəfərin reallıqlarının, həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında xaricdə yaşayan azərbaycanlıların, diaspor təşkilatlarının da üzərinə böyük məsuliyyət düşür.




### XARİCDƏKİ AZƏRBAYCANLILARIN YOL XƏRİTƏSİ

Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olmaqla yanaşı, dünya azərbaycanlılarının fəaliyyət dövründə yeni mərhələnin başlanğıcı kimi tarixiləşdi. Zəfər Qurultayı kimi tarixə düşən bu tədbir xaricdəki azərbaycanlıların növbəti beş ildə fəaliyyəti üçün yol xəritəsini müəyyənləşdirdi. Azərbaycan diasporu qarşısında yeni vəzifələr də qoymuş oldu. Qələbə qazanmış Azərbaycan xalqının Zəfər Qurultayı 2020-ci il Vətən müharibəsində Azərbaycan xalqının böyük Qələbəsindən sonra keçirilən ilk qurultay idi. Azərbaycanın diaspor fəaliyyəti qısa müddətdə uzun və əlamətdar yol keçərək müasir dövrümüzdə mütəşəkkil şəkildə formalaşıb.

Zəfər Qurultayının Şuşa şəhərində keçirilməsi, heç şübhəsiz ki, dünya ölkələrində yaşayan azərbaycanlıların, diasporumuzun fəaliyyət dövrünün yeni mərhələsidir. Ölkəmizdə həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat dövlətimizin əsas inkişaf göstəriciləridir. Prezident İlham Əliyevin rəhbərlik dövrü müasir-müstəqil Azərbaycanın tarixində sürətli iqtisadi inkişaf, dövlətin təşəkkül tapması, qüdrətinin artması, beynəlxalq nüfuzunun yüksəlməsi uğurlar və böyük qələbələr dövrü kimi xarakterizə olunur. Dünya ölkələrində yaşayan gənclərin tarixi torpağımızda bir araya gəlməsi Azərbaycan həqiqətlərini dünyanın müxtəlif olkələrində təbliği baxımından əhəmiyyətlidir. Bu onu bir daha təsdiqləyir ki, xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması istiqamətində görülən işlər öz nəticəsini verib. Birlik və həmrəylik bir ideya ətrafında sıx birləşməyə söykənir. Deməli, dünyada yaşayan soydaşlarımız məqam yetişəndə tarixi torpağımızda birləşə, bir hədəfə vurmağı bacarırlar.

Əlbəttə ki, Azərbaycan mədəniyyətinin incisi olan Şuşada keçirilmiş Zəfər Qurultayı soydaşlarımızın yaşadıqları ölkələrdə fəaliyyətlərini daha əzmlə davam etdirmələrinə təkandır. Prezident İlham Əliyevin təşəbbüsü ilə Dünya Azərbaycanlılarının V Qurultayının məhz Şuşa şəhərində təşkil olunması Azərbaycan diaspor tarixində əlamətdar hadisələrindən birinə çevrildi.

Qurultay iştirakçıları qısa müddət ərzində Zəfər yolunun çəkildiyini, Füzuli Beynəlxalq Hava Limanının inşasını, energetika sisteminin qurulduğunu, yeni evlərin tikildiyini, qədim tarixi mədəni-dini abidələrimizin bərpa olunduğunu gözləri ilə gördülər. Əlbəttə ki, bu Zəfər bütün dünya ölkələrində yaşayan azərbaycanlıların Zəfəridir.



### AZƏBAYCANLI GƏNCLƏR VAHİD PLATFORMADA

Bildiyimiz kimi, Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya diasporumuzun gəncləri toplaşmışdı. Diaspor Gənclərinin III Yay Düşərgəsi keçirildi. Qarabağın incisi olan bu torpaqda bir-birinin ardınca əlamətdar hadisələrin təşkili Şuşanın tarixi yaddaşına həkk edilir. Dünyanın əlli ölkəsindən 115 gəncin qatıldığı Diaspor Gənclərinin III Yay Düşərgəsi dünyanın müxtəlif qitələrinə səpələnmiş gənclərin qədim torpağımızda bir araya gələrək Şuşa ilə tanışlığında böyük əhəmiyyət kəsb etmiş oldu. Qeyd edək ki, Diaspor Gənclərinin III Yay Düşərgəsi Diasporla İş üzrə Dövlət Komitəsinin və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı, Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Dövlət Turizm Agentliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin tərəfdaşlığı ilə keçirildi. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında" 2022-ci il 5 yanvar tarixli Sərəncamı çərçivəsində həyata keçirilən layihə dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı gəncləri vahid platforma ətrafında bir araya gətirmək və Azərbaycanla daha yaxından tanış etmək məqsədinə xidmət edirdi.

Burada iştirakçı olan gənclər qayıtdıqdan sonra yaşadıqları ölkələrin parlamentlərinə, hökumətlərinə, eləcə də beynəlxalq təşkilatlara Tarixi Şuşa haqqında mövqelərini ifadə etmiş oldular. Xatırladaq ki, Diaspor Gənclərinin Yay düşərgələrinin artıq ənənə halı almasının və diaspor hərəkatı tarixində ilk dəfə olaraq Qarabağ torpağında keçirilməsi böyük əhəmiyyətə daşıyır. Xatırladaq ki, Diaspor Gənclərinin I Yay Düşərgəsi "Cümhuriyyətin 100 illiyi" şüarı altında Şəkidə, "Nəsimi-650" II Yay Düşərgəsi isə 2019-cu ildə Şamaxıda keçirilib.

### GÖZ YADDAŞINDA MÜQƏDDƏS MƏKANLAR

Xaricdə yaşayan gənclərimizin və Azərbaycana dost ölkələrin nümayəndələrinin "Şuşa İli"ndə qədim şəhərdə bir araya gəlməsi müsbət hadisədir. Şuşaya toplaşan soydaşlarımız Azərbaycanımızın tarixi barədə hər şeyi ətraflı öyrənmiş oldular. Bu gün xalqımızın bir qism nümayəndələri – azərbaycanlılar dünyanın müxtəlif nöqtələrində yaşayır və öz fəaliyyətlərini məhz yaşadıqları ölkələrdə davam etdirirlər. Planetimizin qitələrinə səpələnmiş azərbaycanlılar digər xalqların nümayəndələrinin öz vətəninin inkişafı yolunda həyata keçirdikləri genişmiqyaslı layihələrin, tədbirlərin icrasında yaxından iştirak etməklə yanaşı, vətənimizin inkişafı, taleyüklü məsələlərdə yaxından iştirak edərək öz töhfələrini verirlər. Gənclər tarixi Zəfərimizin Şuşa təntənəsinin şahidi olmaqla yanaşı, Azərbaycanla bağlarını daha da möhkəmləndirmək, ölkəmizi uğurla təmsil etmək, şəbəkələşmək, yeni dostlar qazanmaq imkanı əldə edirlər. Diaspor gəncləri Şuşanın işğal dövründə dağıdılmış abidələri ilə tanış olaraq, müqəddəs məkanları ziyarət etmələri göz yaddaşına əbədi çökdü.

Əlbəttə ki, bu gün dünyada yaşayan azərbaycanlıların bir araya gəlməsində Ulu Öndər Heydər Əliyev rolu müstəsnadır. "Bütün dünyaya səpələnmiş azərbaycanlıların birliyi, həmrəyliyi indi həm bizim üçün, müstəqil Azərbaycan dövləti üçün, həm də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar üçün xüsusi əhəmiyyət kəsb edir", - deyə, Ulu Öndər Heydər Əliyev bildirirdi.

### BÖYÜK PROSESİN BAŞLANĞICI

Əlbəttə ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlətin qarşısında duran əsas vəzifələrdən biri olan xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, onların ölkəmizin ümumi maraqlarının müdafiəsi işinə cəlb edilməsi işi sürətləndi. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı. Hələ XX əsrin 70-ci illərinin əvvəllərindən başlayan milli dirçəliş, iqtisadiyyat, mədəniyyət, elm, təhsilin inkişafı, mənəvi mühitin sağlamlaşdırılması bütövlükdə milli özünüdərkə təkan verdi. Ötən əsrin 70-80-ci illərdə Ulu Öndər Heydər Əliyev böyük qətiyyət, əzm və cəsarətlə xalqın tarixi yaddaşının qorunmasına, mədəniyyətimizin tərəqqisinə, Azərbaycanın bütün dünyada tanınmasına çalışırdı. Həmin dövrün mövcud siyasi reallıqları diaspor problemi ilə milli ideoloji zəmində açıq və sistemli şəkildə məşğul olmağa imkan verməsə də, mədəniyyət, incəsənət, elm sahəsində ciddi iş aparılır, respublikamızın nailiyyətləri təbliğ edilir, dünya azərbaycanlılarının Vətənlə əlaqəsinə xidmət edəcək hər bir imkandan istifadə edilirdi.

Müstəqillik qazanmış dövlətdə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin birgə müzakirəsi zərurətini nəzərə alaraq Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında Ümummilli Lider Heydər Əliyevin məlum Sərəncamı bu möhtəşəm ideologiyanın gerçəkləşməsinə istiqamətləndi. Həmin ilin noyabr ayının 9-u və 10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı Azərbaycan tarixinə böyük bir prosesin başlanğıcı kimi daxil oldu.

### "KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ"NDƏ DİASPOR GƏNCLƏRİ BİR ARADA

Bu gün diaspor gəncləri yenidən bir araya gəli. Bu dəfə Şuşaya yox, Xankəndi şəhərinə. "Konstitusiya və Suverenlik İli"nə həsr olunan Diaspor Gənclərinin VI Yay Düşərgəsi təşkil olunub. budəfəki, yay düşərgəsinin Xankəndidə keçirilməsinin xüsusi əhəmiyyəti var. Xankəndi sülh, əməkdaşlıq və inkişaf simvoluna çevrilib. Avqustun 9-dək davam edəcək Diaspor Gənclərinin VI Yay Düşərgəsi Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə gerçəkləşdirilib. Diaspor Gənclərinin VI Yay Düşərgəsində dünyanın 61 ölkəsindən 128 gənc iştirak edir. Bundan əvvəlki düşərgələr Şəki, Şamaxı, Şuşa, Naxçıvan və Laçın şəhərlərində baş tutub, düşərgələrə hər il 60-dan çox ölkədən ümumilikdə 700-dən artıq gənc qatılıb.

Müasir dövrümüzdə dünyanın bir çox ölkələrində - Avropada, Şimali Amerikada artıq böyük Azərbaycan icmaları yaranıb. Son illər bu icmalar daha da möhkəm təşkilatlanır, genişlənir və azərbaycanlıların yaşadıqları ölkələrdə onların birliyini, həmrəyliyini təmin edir. Ulu Öndər Heydər Əliyevin dünya azərbaycanlılarını vahid məqsəd ətrafında birləşdirmək siyasəti bu gün Prezident İlham Əliyevin fəaliyyətində davam etdirilir. Bu isə həmvətənlərimizin təşkilatlanması, onlar arasında ideya-mənəvi birliyin daha da möhkəmləndirilməsi,diaspor quruculuğu işinin müvəffəqiyyətlə həyata keçirilməsi baxımından çox böyük əhəmiyyətə malikdir. Xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, cəmiyyətə inteqrasiyası, soydaşlarımızın ictimai-siyasi həyatda iştirak səviyyəsinin artırılması, habelə diaspor təşkilatları arasında səmimi əməkdaşlıq münasibətlərinin yaradılması istiqamətində bir sıra tədbirlər həyata keçirilib. Azərbaycan dövlətinin davamlı dəstəyi sayəsində diasporumuz yeni inkişaf mərhələsinə qədəm qoyub. Son dövrlər xaricdə yaşayan azərbaycanlıların ictimai-siyasi fəallıq səviyyəsi də xeyli yüksəlib. Bu gün azərbaycanlı icmaları yaşadıqları ölkələrdə baş verən mühüm hadisələrə dair öz mövqeyini bildirir, seçkilərdə fəal iştirak edir, siyasi partiyalarda və qeyri-hökumət təşkilatlarında təmsil olunur, bir sıra ölkələrdə isə parlament üzvlüyünə seçilirlər. Bütün bu uğurların əsasında doğma Vətənə sevgi, Azərbaycana layiqincə xidmət arzusu dayanır.

***Zümrüd BAYRAMOVA***

# Erməni vandallığı - dağıdılan abidələr

***Müstəqil Azərbaycanin bütün ərazilərində tarixi, dini abidələrimiz məscidlərimiz yenidən tikilib, bərpa edilib və bu davamlıdır. Məscidlər tarixi simaları qorunmaqla əsaslı təmir edilib. Dünyanın ən qədim məscidlərindən biri olan, 743-cü ildə inşa edilmiş Şamaxı Cümə məscidi yenidən qurulub. Xristian dini abidələri, alban kilsələri, o cümlədən Nic qəsəbəsindəki kilsə, Kiş kilsəsi təmir edilib. Tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin qorunması, həmçinin dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsini daim diqqət mərkəzində saxlayan dövlət kimi bu siyasət işğaldan azad olunmuş torpaqlarımızda da uğurla davam etdirilir.***



Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhərağa, Yuxarı Gövhərağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub. Bütün dünyaya ermənilər Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla öz iyrənc simalarını göstərdilər. Məlumdur ki, Yerevandakı Dəmirbulaq məscidi yer üzündən silinib. Artıq işğaldan azad olunan ərazilərimizdə dini abidələrin bərpası işləri ardıcıllıqla davam etdirilir.

### ”BÜTÜN DİNLƏRİN ABİDƏLƏRİ BİZDƏ QORUNUR – KİLSƏLƏR, SİNAQOQLAR, O CÜMLƏDƏN ERMƏNİ KİLSƏSİ BAKININ MƏRKƏZİNDƏ DÖVLƏT TƏRƏFİNDƏN QORUNUR, TƏMİR EDİLİB”

Vurğulayaq ki, ölkəmizdə olan çoxsaylı xristian icması cəmiyyətimizin ayrılmaz və fəal hissəsidir, onların abidələri və ibadət yerləri, kilsələr Azərbaycan dövləti tərəfindən tam mühafizə edilir və mütəmadi olaraq bərpa edilir. Rus Pravoslav Baş Kafedral Kilsəsi, ”Xilaskar” Yevangelik-lüteran kilsəsi, Gəncədəki Aleksandr Nevski Rus Pravoslav Kilsəsi dövlət tərəfindən təmir olunub, Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi inşa edilib. Qəbələdəki Çotari alban-udi və Bakıdakı Pravoslav kilsələrinin təmiri, Bakıdakı Müqəddəs Məryəm kilsəsinin inşası Heydər Əliyev Fondunun ”Tolerantlığın ünvanı – Azərbaycan” layihəsi çərçivəsində reallaşdırılıb. O cümlədən, Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpa edilib. Bakı şəhərinin mərkəzində Azərbaycan dövləti tərəfindən erməni kilsəsi bərpa edilib. Cənab Prazident bildirib ki, bütün dinlərin abidələri bizdə qorunur – kilsələr, sinaqoqlar, o cümlədən erməni kilsəsi Bakının mərkəzində dövlət tərəfindən qorunur, təmir edilib: ”Onlar nə ediblər? Mən Zəngilanda olarkən dağıdılmış, divarları qalmış məscidin önündəki çıxışımda Azərbaycan xalqına müraciət edərək dedim onlar nə ediblər, beynəlxalq təşkilatlara müraciət edərək dedim ki, gəlin baxın, hesabatı burada hazırlayın, öz kabinetlərinizdə yox. Ermənistan rəhbərliyinin və onun havadarlarının yalan məlumatlarına inanmayın, gəlin, öz gözlərinizlə baxın nə günə salıblar bizim məscidlərimizi. Sadəcə olaraq, onlar görüntü yaratmaq üçün Yuxarı Gövhərağa məscidini guya bir xarici şirkətlə birlikdə təmir etdiriblər. Bu təmir bizə lazım deyil. Bu təmir riyakarlıq rəmzidir, sadəcə olaraq, görüntü yaratmaqdır ki, guya Ermənistan rəhbərliyi məscidləri təmir etdirir”.

### ”ERMƏNİSTAN MÜSƏLMAN ÖLKƏLƏRİ ÜÇÜN DOST OLA BİLMƏZ”

Çox təəssüfedici haldır ki, maddi-mədəniyyət abidələrinin zənginliyi ilə seçilən Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğalı nəticəsində İslam mədəniyyətinə aid olan bütün abidələr dağıdılıb.

”Ermənistan daim çalışır ki, müsəlman ölkələri ilə münasibətlər qursun, bəzi ölkələrlə münasibətləri inkişaf etdirsin, özünü sanki müsəlman xalqlarına müsbət münasibət bəsləyən bir ölkə kimi qələmə versin”, - deyən dövlət başçısı bunların yalan olduğunu çıxışlarının birində bildirmişdir: ”Hamısı yalandır. Əgər buna kimsə bu günə qədər inanıbsa, gəlsin Şuşaya, Ağdama, Füzuliyə, Cəbrayıla, bizim azad edilmiş digər torpaqlara, görsün ki, Ermənistan rəhbərliyi nə günə salıb müsəlman məscidlərini. Hər bir müsəlman üçün müqəddəs olan məbədlərimizi nə günə salıb. Dağıdıb, təhqir edib, donuz saxlayıb, inək saxlayıb, məscidlərimizin üzərində təhqiramiz ifadələr yazdırıb. Belə bir ölkə müsəlman ölkələri ilə dost ola bilərmi? Əlbəttə ki, yox. Mən bunu dəfələrlə bütün beynəlxalq kürsülərdən bəyan edirdim, müsəlman ölkələrinin liderlərinə müraciət edərək həm ikitərəfli formatda, həm çoxtərəfli görüşlər əsnasında, beynəlxalq tədbirlərdə deyirdim ki, Ermənistan müsəlman ölkələri üçün dost ola bilməz, məscidləri bu günə qoyan ölkə müsəlman ölkələri ilə dost ola bilməz”.



Tarixin müxtəlif dönəmlərində Azərbaycan tolerant mühiti, multikultural dəyərləri ilə seçilən məkan olub. Bütün dinlərin və etnik qrupların nümayəndələrinin birgə yaşaması və ölkəmizin uğurlu inkişafına birgə töhfələr mövcud mühitin təzahürüdür. Bütün dinlərə hörmətlə yanaşaraq müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət göstərlir, o cümlədən dini ocaqlara məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir.

Ermənistan əməllərinin təzahürü olan bu vandallıq bir daha təsdiqləyir ki, bütün bunlar Azərbaycana qarşı məqsədli soyqırımıdır. Artıq Azərbaycan öz torpaqlarına sahibdir və işğaldan azad olunan dağıdılmış ərazilərimiz, o cümlədən dini-tarixi abidələr yenidən qurulur, təmir və bərpa olunur.

### ”XALQIMIZA MƏXSUS MİNLƏRLƏ TARİXİ-MƏDƏNİ ABİDƏ VƏ YAŞAYIŞ MƏSKƏNİ DAĞIDILIB VİRAN EDİLMİŞDİR”

Göründüyü kimi, ermənilər Azərbaycana qarşı işğalçılıq siyasətini təkcə ərazi iddiaları ilə məhdudlaşdırmayıb, mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə göz dikiblər, onları oğurlayıb özününküləşdirməyə çalışıblar. Azərbaycanın mədəni irs nümunələrini erməni mülkiyyəti adı ilə tanıtmağa çalışaraq əqli mülkiyyətimizin terrorçusuna çevriliblər. Azərbaycanın işğal altında olan ərazilərini xarabalığa çevirən ermənlər vəhşilik missiyalarını həyata keçiriblər. Artıq Azərbaycan 44 günlük Vətən müharibəsində Zəfər qazandı və yolumuzu gözləyən yurd yerlərimizdə abadlıq quruculuq işlərinə start verilib. İşğaldan azad olunmuş ərazilərdə məscidlər, mədrəsələr, körpülər, məbədlər nəinki dağıdılmış, eyni zamanda bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq xalqımızın milli mənəvi dəyərləri təhqir edilmişdir. Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri və s. bu sırada vurğulanmalıdır. Qaraağac qəbiristanlığında yerləşmiş yerli əhəmiyyətli memarlıq abidəsi olan Uğurlu bəyin türbəsi də daxil olmaqla XIX əsrə aid 4 türbə tamamilə məhv edilmişdir. Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələri dağıntılara məruz qalmış, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan dəymişdi. Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri olan məscidlər, türbələr və digər inanc yerləridir ki, bu da erməni vandallığının göstəricisidir.

Şuşada Yuxarı Gövhər Ağa məscidinin əsaslı yenidənqurma və bərpa işlərindən sonra açılışı, eləcə də Saatlı məscidinin açılışı dini abidələrimizə Heydər Əliyev Fondu tərəfindən ayrılan diqqətdir. Dini ocaqlara olan münasibət Azərbaycanın bugünkü həqiqətlərinin təzahürüdür.

### ZƏNGƏZURDAN İRƏVANA QƏDƏR DAĞIDILMIŞ TARİXİ ABİDƏLƏR

Bütün qeyd olunan bu və digər abidələrimizlə yanaşı, Ermənistan ərazisində məhv edilən Azərbaycan abidələrini də qeyd etməliyik. Zəngəzurdan İrəvana qədər dağıdılmış tarixi abidələr erməni vandallığının bariz nümunəsidir. 1988-ci ildə Zəngəzurda, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovulmağa başladılar. Kütləvi terrora məruz qalan azərbaycanlılar məcburiyyət qarşısında qalıb öz dədə-baba yurdların tərk etdilər. Bu ərazilərdə onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edildi. Ulu Öndər Heydər Əliyev deyirdi: ”Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayışməskəni dağıdılıb viran edilmişdir”.



Erməni vandalları tərəfindən yandırılan Ağdam Cümə məscidi

### TARİX ƏDALƏTİ BƏRPA EDİR

Qərbi Azərbaycan ölkəmizin tarixinə görə, qədim bölgələrdən biridir. Burada mövcud olan qəbirsanlıqlardakı nadir məzar daş nümunələri, tarixi türk qalaları, məscidlər və s. bu məkanın tarixinin göstəricisidir. Böyük bir irsin nümunələri bu yerlərdədir. Əhalisi soyqırım və deportasiyalara məruz qalmış tarixi Azərbaycan ərazilərindən biri də qədim Zəngəzur torpağıdır.

1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 382 şiə məscidi, 9 sünni məscidi fəaliyyət göstərib. İrəvan quberniyasında məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscidin filialları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Mollalar, Təzə Kilsə, Nərcan və digər kəndlərində fəaliyyət göstərib. İrəvan şəhərinin özündə XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Çamə, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. İrəvanın Came məscidi kompleksində iri mədrəsə binası da mövcud olub. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib.

Qədim tarixi olan Zəngəzur mahalının Qarakilsə rayonunun Urud kəndi ərazisində yerləşən qədim Azərbaycan - türk tarixi-memarlıq abidələri kompleksi olan Uruda daxil olan Urud qalası Urud kəndi yaxınlığında yerləşən tarixi türk qalasıdır. Xatırladaq ki, 1968-ci ildə ermənilər Urud kəndinin adını dəyişərək Vorotan, Urud qalasının adını isə Vorotanberd qoymuşlar. Urud kəndində 1988-ci ilə kimi yalnız Azərbaycan türkləri yaşamışlar. Bu kənddə ermənilərin ilk məskunlaşması 1988-ci ildən sonra olmuşdur.

Onu da qeyd edək ki, abidələr kompleksinin ən mühüm hissəsi isə Urud kəndi yaxınlığındakı orta əsrlər Azərbaycan məzarlığıdır. Məzarlıqda bədii tərtibatlı məzar daşları, qəbirüstü sənduqələr və qoç heykəlləri olmuşdur. Qəbiristanda 13 sənduqə, 4 qoç heykəlli məzar daş qeydə alınmışdı. Məzarlıq ermənilər tərəfindən dağıdılıb, Urud qalasının yalnız xarabalıqları qalır.

Ermənilər Azərbaycan xalqının tarix və mədəniyyətinə dair fakt və həqiqətləri saxtalaşdırmaqla bərabər, abidələrin görünüşünü və yazılarını da süni şəkildə ”erməniləşdirmişlər”. Məkrli niyyət və mənfur siyasət sahibi olan ermənilərin azərbaycanlılara qarşı törətdikləri vandalizm hərəkətləri hər zaman pislənilib. Tarix ədaləti bərpa edir. Hər zaman belə olub, bu gün də belədir.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Siyasi həqiqəti ifşa edən təzadlar

Bəli, "barışmaz" və radikal düşərgənin bayraqtutanı maskasını üzünə taxmış Əli Kərimlinin əslində siyasi peşəkarlıqdan çox uzaq olduğunu hamımız gözəl bilirik. Ən azından ona görə ki, bu "siyasətmen"in adı ilə son 30 il ərzində assosiasiya olunan ucuz demaqogiya, cılız emosionallıq, şəxsi uğursuzluq, təhrikedici nitq, qərəz, yalan, açıq mübarizədən qaçmaq (boykot məhz açıq mübarizədən qaçmaq deməkdir), monotonluq, inkarçılıq və digər bu kimi keyfiyyətlər heç bir zaman siyasi peşəkarlığın göstəriciləri ola bilməz. Əksinə, sadaladığımız keyfiyyətlər xalis radikal təfəkkürün və avantürizmin təzahürləridir.Şəxsi iddiasına görə 30 ildən artıq siyasət ilə məşğul olan Kərimli sanki efirdə ilk dəfə olan və öz görüntülərini qohum-qonşu arasında paylaşan artist kimi hansısa jurnalda çıxmış məqaləsini sevincək və tələsik şəkildə sosial şəbəkələrdə paylaşır, hətta bu cızma-qaradan böyük sensasiya yaratmaq istəyir. Qeyd olunan fakt öz-özlüyündə bu bəlalı siyasətçinin kiçik düşüncə sahibi olmasından xəbər verir və natamamlıq kompleksindən ciddi şəkildə əziyyət çəkdiyini nümayiş etdirir. Öz bayraqtutanları haqqında və ümumiyyətlə aid olduqları düşərgə ilə bağlı pozitiv məlumatları eşitməyə alışmayanlar çaşqınlıq içində məqaləni paylaşır, ancaq həqiqətdə nə baş verdiyini hələ də anlaya bilmirlər.Analitikadan çox uzaq olan, habelə siyasi nəzəriyyə və təcrübəyə heç bir faydası olmayan məzmunsuz, başlıca olaraq məsuliyyətsiz olan bu cızma-qara öz mahiyyətinə görə daha çox "Ulduz" filminin qəhrəmanı olan yoldaş Gülümsərovun yuxarılara yazdığı bəlli təyinatlı məktubuna bənzəyir. Sosial şəbəkələrdə isterik şəkildə cızma-qarasını paylaşan Kərimli əslində özünü növbəti dəfə ifşa etməkdən başqa heç bir işlə məşğul olmur.

Xəstə təxəyyülündə yaratdığı yalan və iftira dolu dünyasında yaşayan bu "siyasətmen"in xəbəri yoxdur ki, Milli Elmlər Akademiyasının orta-statistik əməkdaşının belə vəzifə öhdəliyinə daxildir ki, xaricdə nəşr olunan toplularda mütəmadi olaraq müxtəlif yazılar ilə çıxış etsin. Təvazökar alimlər susur, ancaq 30 ildən sonra dayaz məqaləsi çıxmış demaqoq öz yazısının ətrafında ucuz şou yaradır. Bəli, haqlısınız, bu yalnız xalis demaqoq və narsistə aid ola biləcək keyfiyyətdir. Burada əsl "siyasi lider" obrazının heç izi-tozu belə görsənmir. Daha betər hal odur ki, kollektiv əməyin məhsulu olan bu "qaralama" təkcə müəllifin xislətini aşkar etmir, yazı eyni zamanda bütün düşərgənin mahiyyətini üzə çıxardır. Əlbəttə ki, bu cür düşərgədə bədbinlik hissinin yaşanması qaçılmazdır.Oxuyucunu yormamaq üçün sözügedən məqalənin sadəcə bəzi məqamlarına diqqət yetirək ki, tənqidlərimizin obyektiv olduğunu hamı görə bilsin. "Azərbaycan müxalifəti açıq şəkildə bildirir ki, biz yalnız Rusiyadan tam ayrıldıqda sabit, davamlı demokratiya qura bilərik" – deməli bu siyasi şoumen artıq bütün müxalifətin adından danışır. Bu cür mesajın təyinat və məqsədi aydındır: ölkədə iğtişaş yaratmaq və sabitliyi pozmaq istəyən xarici qüvvələr öz niyyətlərini həyata keçirtmək üçün kimə müraciət etməli olduqlarını bildirir. Odur ki, bu sözlər sadəcə xəstə ambisiyaların təzahürü deyillər, onlar düşmənə ötürülən açıq mesajdır. Burada hər-hansı "böyük amallardan" və ya demokratik mübarizədən söhbət belə gedə bilməz.

Özünü Qərbə "müxalifətin lideri" kimi sırıyan bu demaqoq sadəcə potensial alıcıya öz xain xidmətlərini təklif edir. Mətbuatdan onu da bilirik ki, Kərimli rəhbərlik etdiyi partiyadan vaxtaşırı qalmaqallı qopmalar baş verir. Öz partiyasında belə fikir birliyini yaşatmaq iqtidarında olmayan siyasətçi necə bütün müxalifətin adından danışa bilər ki? Siyasətdə yoldaş Gülümsərov obrazını yaşadan Kərimlinin konkret təyinatlı mesajları qeyd olunanlar ilə bitmir: "Məni istənilən gün həbs edə və ya öldürə bilərlər".

Gülümsərov-Kərimlinin sözügedən mesajının açıqlaması budur: "ey sabitliyi pozmaq və iğtişaş yaratmaq arzusunda olan qüvvələr, təlsin məni həbs edə bilərlər və siz köməksiz qala bilərsiniz. Çünki Azərbaycanda məndən başqa sizin demokratik nağıllarınıza inanacaq və digərləri inandıracaq adam qalmayıb." Heç şübhəsiz ki, bu cür davranış yalnız xəstə təfəkkürün və məkrli niyyətlərin törəməsidir.Məqalədə müəllifin digər absurd fikri də internet istifadəçisində yalnız təbəssüm yarada bilər: "5 ildən artıqdır mənə tətbiq olunan internet blokadası". Təəccüblənərəm əgər hər-hansı bir sosioloji tədqiqat mərkəzi tərəfindən keçirilən bəsit sorğunun nəticəsində müəyyən olunacaqdır ki, şou-biznesin konkret bir nümayəndəsi ilə yanaşı, qeybət kontekstində sosial şəbəkələrdə ən çox adı çəkilən ikinci şəxs məhz Kərimlidir. Bu siyasətçinin ismi eyniliklə şou-biznesin nümayəndələrinin adı kimi yalnız qalmaqallarda çəkilir. Mövcud vəziyyət heç də təsadüfi deyil, çünki tətbiq olunan fəaliyyət prinsipi eynidir: qalmaqal bərabərdir populyarlıq. Mövcud vəziyyətdə adını qeyd etdiyimiz siyasətçi hansı siyasi əxlaq ilə internet blokadasından danışır? Bəs necə davamlı olaraq statuslar, hətta yazdığı cızma-qaranı belə "məqalə" adı ilə sosial şəbəkələrdə paylaşır? Gördüyümüz kimi, onun hər bir sözü və fikri ucuz yalan və xalis demaqogiyadır.Yazıda öz əksini tapmış digər "ağıllı" və təzadlı fikirlərə diqqət yetirək: "Odur ki, mən Rusiya ilə Azərbaycan arasında gərginliyin davam edəcəyini düşünürəm" və "İlham Əliyevə Rusiyanın Cənubi Qafqazda mövcudluğu lazımdır ki, demokratik Qərbin regiona təsirini neytrallaşdırsın". Tamamilə bir-birini təkzib edən və heç bir şərhə ehtiyacı olmayan bu fikirlər də ucuz demaqogiyadan başqa bir şey deyil.

Cavabsız məhəbbət yaşayan bir aşiqin Qərbə oxunulan etiraf serenadasına daha çox bənzəyən bu məqalədə müəllif qeyd edir: "Avropaya inteqrasiya olmadan bizim Azərbaycanda quracağımız demokratiya sabit və davamlı olmaya bilər." Dərhal sonra isə müəllif "milli qüvvə" statusuna iddia etdiyini yada salır və öncəki fikrini tamamilə təkzib edən digər sözləri qeyd edir: "Əlbəttə, Azərbaycanda demokratiyanı yenidən bərqərar etmək bizim öz işimizdir."Yazıda öz əksini tapmış "Əliyev rejiminin dəstək verəcəyim heç bir yanı yoxdur" kimi sözlər isə həqiqətdə o deməkdir ki, əldə olunmuş tarixi Qələbəni belə satmaq və şübhə altına salmağa hazıram. Azərbaycan dövlətinin tarixində ən qürurlu dövrünü yaşadığı zamanda və Qələbə namine bütün xalq bir arada olan vaxtda bu cür xain fikirlərin səsləndirilməsi həm də o deməkdir ki, Kərimli öz siyasi ambisiyalarını ödəmək naminə milli maraqları belə satmağa hazırdır. Bu cür etiraflar siyasi alverçini ölkəmizdə iğtişaş yaratmaq arzusunda olan qüvvələr üçün ideal kadra çevirir. Odur ki, yoldaş Gülümsərovun bəlli məktubu kimi, Kərimlinin də bu cızma-qarası heç də xoş niyyətlə yazılmayıb. Bu cür addımların demokratik siyasi mübarizəyə və ya sağlam siyasi rəqabətə heç bir aidiyyəti yoxdur. Demokratik mübarizə və sağlam rəqabət üçün ideal mühit yaradan əsas amil siyasi dialoq məfhumudur. Bayraqtutanı Kərimli olan radikal düşərgə isə nəinki dialoqda iştirak etmir, onu hətta var gücü ilə inkar edir. Bilməyimiz vacib olan həqiqət budur. Beləliklə, müəyyən etdiyimiz təzadlar növbəti siyasi həqiqətləri ifşa edir: demaqogiya və təxribatlar radikal düşərgənin əsas alətləri olaraq qalmaqdadır; milli maraqlar həmin düşərgə üçün əsla prinsipial meyar deyil; məsuliyyət hissi olmadığı üçün bir-birini təkzib edən bəyanatlar verilir; bu düşərgədə konseptual yanaşma yox və bütün fəaliyyət yalnız demaqogiya üzərində qurulub; radikal təfəkkür paradiqmasında insanlar və hətta yaxın tərəfdaşlar belə alət kimi istifadə olunurlar; emosional manipulyasiyalar radikal düşərgənin ideoloji fəaliyyətinin əsası kimi qalmaqda davam edir.

Bir sözlə, bu siyasi personajın təfəkkürü səksəninci illərinin sonunda olduğu vəziyyətdəki kimi donub qalıb. O, hələ də anlaya bilmir ki, müxalifətdə olmaq kolluqda gizlənib "partizanlıq" etmək demək deyil. Siyasi müxalifət siyasi dialoq mühitini peşəkar ünsiyyət vasitəsinə çevirən və sahib olduğu ideyaları cəmiyyətin inkişafı naminə əməkdaşlıq etməklə həyata keçirən siyasi institutdur. Reallıqdan qopmuş və öz maniakal ambisiyalarında boğulan bu siyasətçi nə özünə, nə də ki, ətrafdakılara faydalı ola bilmir. Oxucuda bu məqamda sual yarana bilər: sağlam düşüncəli və inkişaf etmək istəyən bir şəxs tərəfdaşlarına tutarlı dəstək və uğurlu yol göstərə bilməyən, ötən müddət ərzində heç bir nailiyyəti olmayan, adı yalnız qalmaqal və təxribat xarakterli olaylarda çəkilən, açıq rəqabətdən qaçan, yalan danışmağı və müxtəlif bəhanələri uydurmağı özünə yol seçmiş, tərəfdaşlarını davamlı olaraq satan, habelə natamamlıq kompleksindən ciddi "əziyyət" çəkənə qarşı niyə rəğbət bəslənməlidir ki?!

**Asif Adil**
**politoloq**



# İşıqfor altında düşüncələr...

**Mətanət Məmmədova**

***Hərdən işıqforun altında tək-tənha dayanıram. Elə bu səbəbdən də düşünməyə vaxt çox olur. Əksər adam ötür, keçir, qaçır, maşınların arasından ilan kimi sürünüb o başa çatır. Maşınlar da sağ olsunlar, düz keçid xəttinin üzərində dayanır. Sanki burada dayanmaq qadağan deyilmiş kimi...***

Lap tək qalanda isə, düzü, bir az xəcalət də çəkirəm. Düşünürəm ki, kənardan baxanlar birdən məni anormal hesab edər. Deyərlər ki, bunun başı xarab olub görəsən, bir neçə dəqiqədir ki, durub burada yaşıl işığı gözləyir. Ona görə də başımı aşağı salıram ki, heç kimin mənə rişxəndlə baxdığını da görməyim.

Hələ o gün lap utandım. İşıqforda dayanmışam. Beş-altı gənc qız da yaxınlaşdı. Bir az durdular orada. Onlardan biri:

-Ay qızlar, niyə dayanmısınız, maşın yoxdur ki, keçin də.

Qızlar da düşdü onun ardınca, getdilər. Hələ arada dönüb mənə də baxdılar. Sanki demək istədilər ki, başın xarab olub, niyə dalımızca gəlmirsən?..

Mən də gözlədim, yaşıl işıq yandı, sonra keçdim. Keçmək deyəndə də, yaşılda elə bilirsiniz yol bizim olur? Yolumuzu tutan maşınların arasından ora-bura vurnuxmaqdan adamın başı gicəllənir. Lakin di gəl, gör, maşının sürücüsünün bu, vecinədir ki, axı mən bu adamın yolunu niyə kəsmişəm? Üstəlik musiqiyə də o qədər səs verirlər ki, yaxınlaşdıqca, deyirsən bəlkə bu dəqiqə üzərinə top atılacaq.

Nə etməli, bizim şəhərdə işıqfor mədəniyyəti belədir də. Bir gün deyil, iki gün deyil, gərək öyrəşəsən, əlac yoxdur.

Bir də, bu işıqfor məsələsi bir az da fərasət istəyir. Bir də baxırsan ki, camaat qırmızı işıqda kütləvi şəkildə yolun ortasındadır, o tərəfdən də maşınlar elə sürətlə gəlir, deyirsən bəlkə işıq sürətidir. Belə olanda ağ xətt üzərində bir qaçaqaç düşür, gəl, görəsən. Maşınlar siqnallayır. Kənardan qulaq verən olsa, deyər bəlkə toydur, gəlin köçür.

Lakin nə toy, nə gəlin. Təzə xəbərdir niyə? Bu şəhərdə hər saniyə toydur, yollardan hər an gəlin karvanı keçir. Maşınlar siqnallayır, ağız deyəni qulaq eşitmir, camaat bir-birinə qarışır, ora-bura qaçır. Baxdıqca düşünürsən ki, vallah, bu sürücüləri də, işıqfora məhkum olunan insanları da Allah qoruyur. İlahi bir qoruma olmasa, hər gün neçə-neçə maşın neçə-neçə insanın sonu ola bilər.

Bəzən də düşünməli olursan ki, indi ki bu işıqforlara məhəl qoyan yoxdur, onlar nə üçün saxlanılır? Lakin tezcə də bu fikirdən vaz keçirsən. Çünki işıqforlar yol hərəkəti qaydalarına müvafiq olaraq yerində olmalıdır. Bəlkə nə vaxtsa ya bizim uşaqlar, ya uşaqlarımızın uşaqları, onlar da olmasa, onların uşaqları bu işıqfora riayət edərlər. Sürücülər işıqforun xətti üzərində dayanıb yolu keçilməz etməzlər. Bəlkə nə vaxtsa bu şəhərin bəzi insanları işıqfor haqında müəyyən biliyə sahib olar, o qızlar kimi "maşın yoxdur, keçin də" deməz, işıqforda təkcə dayanan adamı başı xarab hesab etməzlər. Bəlkə bir gün bu işıqforun məhz insanların sağlamlığı, rahatlığı və təhlükəsizliyi naminə qoyulduğu anlaşılar.

5 avqust Beynəlxalq İşıqfor Günüdür. Desəniz ki, çox danışıram, yox, ta yorulmuşam yazmaqdan da, deməkdən də, bu günün xətrinə yazdım bu yazını. İnşallah, bəlkə bu gün olmayanlar sabah olar?..




# Yaddaşlarda və hafizələrdə iz qoyan insan - Misirxan Vəliyev

***Elə ictimai-siyasi xadimlər, mədəniyyət, elm adamları var ki, onlarla söhbət etmək, müzakirələr qurmaq, yeri gələndə məsləhətlər almaq insana zövq verir, fərəh hissi yaradır. Belə mötəbər zirvəyə yüksələn insanlar aramızda olmayanda özümüzü tənha hiss edirik, ciddi şəkildə narahat oluruq. Ömrünün az qala 50 ilini Azərbaycan dövlətinin inkişafına, xalqın milli və vətənpərvərlik ruhunda oyanışına, başlıcası isə xalqımızın Ümummilli Lideri Heydər Əliyev ideyalarının və siyasətinin xalqa olduğu kimi çatdırılmasında böyük xidmətlər göstərmiş YAP Siyasi Şurasının üzvü, İcra Katibliyinin baş məsləhətçisi, YAP Sabunçu rayon təşkilatının sədri kimi mötəbər mövqelərdən olmuş, "Tərəqqi" medalı və "Prezidentin fərdi təqaüdü"cüsi Misirxan Vəliyev də haqq dünyasına qovuşduqdan sonra əqidə yoldaşları, dostları arasında dərin təəssüf hissi fonunda bir boşluq yaranıb.***

Hər kəsin dilindən o fikir səslənir "heyif dəyərli ziyalı, fəal ictimai siyasi xadim, yaxın dost, qohum idi", - deyə qeyd olunur.

Dəfələrlə mənim də onunla geniş və ətraflı söhbətlərim olub. Hər görüşümüzdə, söhbətimizdə ondan yeni, diqqətçəkən məsləhətlər eşidir, tövsiyələr dinləyirdim. Bu baxımdan jurnalist fəaliyyətimdə müsahibə aldığım, açıqlama götürdüyüm şəxslər arasında Misirxan müəllimin özünəməxsus yeri olub. Misirxan müəllim həddindən artıq dövlətinə bağlı, xalqını sevən şəxs idi, bütün varlığı ilə Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasətə və Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi siyasi fəaliyyətinə dəyər və dəstək göstərirdi.

Misirxan müəllim ictimai-siyasi xadimlərimizdən olsa da, Azərbaycanın keçmişindən danışanda sanki qarşında uzun illər tədqiqatlar və araşdırmalar aparmış dərin elmi biliklərə, zəngin məlumatlara malik tarixçi ilə həmsöhbət olduğunu düşünürdün. Azərbaycanın 5 min illik dövlətçilik tarixinin hər bir dövrünü, səhifəsini son dərəcə dəqiqliklə şərh edir, böyük tarixi şəxsiyyətlərimizin, söz, sənət ustadlarımızın, işıqlı ziyalılarımızın həyat və yaradıcılığından maraqlı fikirlər səsləndirirdi. Xüsusilə də, Misirxan müəllim ötən əsrin 90-cı illərində Azərbaycanın ictimai, siyasi hadisələrindən danışarkən daha dəqiq və ciddi faktlara söykənən fikirlər səsləndirirdi. Deyirdi ki, o dövrdə Azərbaycan dövləti gözümüzün önündə dağılırdı, xalqın sabaha olan ümidləri alt-üst olurdu. Belə ağır, fəlakətli zamanda bu xalqın milli və dövlətçilik mənafeyni düşünən və üzləşdiyi problemlərin həlli üçün canıyanan ziyalılar, ictimai, siyasi fəallar Ulu Öndərimiz Heydər Əliyevə kömək üçün müraciət etdik.

## Kövrək və xeyirxah insan

Ötən əsrin ağır dövrünü xatırlayanda Misirxan müəllim kövrəlirdi. Sol əli ilə yaşaran gözlərini silib deyirdi ki, Ulu Öndərə kömək üçün müraciət edəndə ürəklərimiz narahatlıqla döyünürdü. Çünki kecikmək olmazdı. Azərbaycanda hakimiyyəti zəbt etmiş qüvvələrin bacarıqsızlığı və səriştəsizliyi ölkəni uçuruma, xalqı isə məhvə aparırdı. Bu böhranlı vəziyyətdən istifadə edən vəhşi erməni toplumu xarici dairələrin hərbi, siyasi, maliyyə dəstəyinə arxalanaraq torpaqlarımızı ardıcıl olaraq işğal edirdi. Belə çətin dövrdə tərəddüdlər yeni, ağır fəlakətlər yarada bilərdi. Misirxan müəllim böyük fərəh hissi ilə vurğulayırdı ki, daim xalqının yanında olan Ulu Öndərimiz Heydər Əliyev bizlərin müraciətinə dərhal müsbət cavab verdi və Bakıya gəlib xalqla bir yerdə olmağa hazır olduğunu bəyan etdi.

Misirxan Vəliyev tarixi ərazilərimizin bir parçası olan Qərbi Azərbaycanın qədim diyarı olan Zəngəzur mahalının Qafan rayonunun Kığı kəndində anadan olub. Gələcək həyatını tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Misirxan müəllim taleyin hökmü ilə ictimai-siyasi proseslərin axarında Ulu Öndərimiz Heydər Əliyeviç olmaqla ölkənin çətin və ağır dövründə əməli fəaliyyəti ilə çoxlarına örnək ola biləcək nümunəvi yol tutdu. Bütün varlığı ilə Ulu Öndər Heydər Əliyev siyasətinə və ideyalarına bağlı olan Misirxan müəllim 1992-ci ildə Ali Sovetin qarşısında yaş senzinə qarşı keçirilən mitinqlərin fəal təşkilatçılarından olmuşdur. 1992-ci ilin noyabr ayında YAP-ın Naxçıvanda keçirilən ilk təsis konfransının iştirakçısı olmuş və Zəngilan rayon təşkilatının adından çıxış etmişdir. 1992-ci ildə Ulu Öndərimiz Heydər Əliyevin hüquqlarının qorunması ilə bağlı Zahid Qaralovun rəhbərliyi ilə yaradılan müdafiə komitəsinə üzv seçilmiş və bu istiqamətdə uğurlu nəticə əldə edilənə qədər mübarizə aparmışdır. 1992-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılması ilə əlaqədar ziyalıların Dahi Öndər Heydər Əliyevə müraciəti və Dahi Öndər Heydər Əliyevin ziyalılara cavabı "Səs" qəzetində dərc olunduqdan sonra həmin qəzetin 2000-dən artıq nüsxəsini cox çətinliklə Zəngilan rayonunda paylamışdır.

1992-ci ildə Yeni Azərbaycan Partiyasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçməsi üçün lazım olan 1050 imzanın 278-ni təşkil etmişdir ki, onlardan da 147 nəfəri Misirxan müəllimin yaxın qohumları olmuşdur. Çətin dövr olmasına baxmayaraq prinsipiallıq və qətiyyət göstərən M.Vəliyev fotostudiyada Ulu Öndər Heydər Əliyevin 1000-ə yaxın fotosunu iri formatda hazırladaraq küçə və meydanlarda, ictimai nəqliyyatın şüşələrinə yapışdırmışdır. Bu cür fəaliyyətinə görə dəfələrlə o dövrün qeyri-demokratik hakimiyyət təmsilçilərinin hücumlarına, təzyiqlərinə məruz qalsa da, heç zaman mövqeyindən geri çəkilməmişdir. Əksinə, daha böyük həvəs və fədakarlıqla Ulu Öndərimiz Heydər Əliyevin xeyirli, gərəkli proqram xarakterli fikirlərini, ideyalarını cəmiyyətə təqdim etmişdir. O Yeni Azərbaycan Partiyasının Zəngilan, Laçın, Ağcabədi, Goranboy, Nərimanov və Xəzər rayon təşkilatlarının yaradılmasında fəal iştirak etmişdir. M.Vəliyev 1994-cü il noyabr ayının 9-da YAP -ın birinci qurultayına hazırlıq üzrə təşkilat komitəsinin üzvü olub və yüksək səviyyədə keçirilən qurultayda partiyanın Siyasi Şurasının üzvü seçilib.

Bir sözlə, Cənubi Qafqazın lider partiyası olan YAP-ın formalaşmasında M.Vəliyev fəallığı ilə seçilən və bu yolda yorulmadan çalışan fədakarlardan olub. O tez-tez rayonlara səfərlər edir insanlarla görüşür, YAP-ın ideoloji –siyasi hədəflərindən, Ulu Öndərimiz Heydər Əliyevin qurucusu olduğu partiyanın dövlətçiliyimizin möhkəmlənməsində, xalqımızın siyasi, ictimai fəallığının artırılmasında rolundan danışırdı. İnsanlar onu maraqla dinləyir və fikirlərini, tövsiyələrini, irəli sürdüyü təklif və ideyalarını əllərindəki kitabçalara yazırdılar. M.Vəliyev həm də insanların problem və qayğıları ilə maraqlanır, çətinliklərlə üzləşən insanlara imkanları daxilində yardımçı olurdu. Bu baxımdan M.Vəliyev insanlar arasında sevilən və seçilən ictimai-siyasi xadimlərdən olub.

## O, əməyi və zəhməti ilə zirvələrə ucaldı

M.Vəliyev dövlət müstəqilliyimizin daha da möhkəmlənməsi, yerli və xarici məkrli dairələrə qarşı mübarizədə yorulmaq, ruhdan düşmək nə olduğunu bilmirdi. Bəzən işi o qədər çox olurdu ki, gecələr yuxusuz qalır, gündüzlər qısamüddətli də olsa istirahət etmirdi. Ona "Misirxan müəllim, bir qədər istirahət edin" müraciəti edəndə o, "dövlətimə, xalqıma xidmət etmək mənə zövq verdiyi kimi, həm də istirahət bəxş edir", - deyə cavab verirdi.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Prezidentin fərdi təqaüdü" fəxri adına layiq görülərkən M. Vəliyevin ifadə etdiyi fikirlərin, yazdığı müraciətin hər bir sətri düşündürücü məna daşıyır: "YAP çətin, ancaq şərəfli yol keçmişdir. Ulu Öndərimiz Heydər Əliyevin dediyi kimi "Dünənin, bu günün və sabahın partiyası" adını qazanaraq qısa müddətdə bölgəmizin ən güclü partiyalarından birinə çevrildi. Sonrakı illərdə Cənubi Qafqazın ən güclü və aparıcı partiyası olan YAP Sizin rəhbərliyinizlə yeni inkişaf mərhələsinə qədəm qoymuş, partiyanın nüfuzlu üzvlərinin sayı daha da artmışdır".

M.Vəliyev qeyd edirdi ki, YAP-ın 2021-ci ilin martın 5-də keçirilən VII qurultayından sonra partiyamızın siyasi həyatında yeni mərhələnin əsası qoyuldu: "Qurultaydan sonra Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Partiya sədrinin birinci müavini, həmçinin partiyanın digər müavini və Mərkəzi Aparatına rəhbərlik edəcək müavini təyin edildi. Beləliklə, YAP yeni inkişaf mərhələsinə daxil oldu. Tam qətiyyətlə demək olar ki, bu gün Yeni Azərbaycan Partiyasının üzvləri, Ulu Öndərin siyasi xəttinə sadiq qalaraq Onun siyasətini müasir dünyada aparmaq üçün bütün sahələrdə səylə çalışırlar. Ulu Öndərimizə olan sevgi daimi və davamlıdır. Azərbaycan durduqca bu sevgi hər zaman insanların qəlbində yaşayacaq".

M.Vəliyev Prezidentimiz İlham Əliyevə ünvanladığı məktubunda onu da vuğulayırdı ki, Allah Sizi qorusun, Cənab Prezident: " Dövlətimizin inkişafı, onun möhkəmlənməsi, xalqımızın firavanlığı və rifahı naminə yürütdüyünüz qətiyyətli fəaliyyətinizdə Sizə möhkəm cansağlığı və yeni-yeni nailiyyətlər arzu edirəm".

M.Vəliyev Azərbaycanı böyük və qüdrətli, həm də ərazi bütövlüyün, suverenliyini tam bərpa etmiş dövlət olaraq görmək istəyirdi. İstəyi və arzusu reallaşdı. 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün çəkən Vətən Müharibəsi ilə Azərbaycan Prezidenti İlham Əliyevin komandanlığı ilə ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. 2023-cü il sentyabrın 19-da başlayan antiterror əməliyyatları ilə Qarabağdakı separatizm ləğv olundu və terrorçu rəhbərlərin hamısı həbs olunaraq ədalət mühakiməsinə təqdim edildilər.

Xatirimdədir Zəfər paradından sonra M.Vəliyevdən təəssüratlarını öyrənmək üçün müraciət etdikdə o qürurla bu sözləri dedi: "Biz artıq dünyanın 5 qüdrətli dövlətindən və 5 qalib xalqlarından biriyik. Bu qüruru bizə yaşatdığına görə Prezident, Ali Baş Komandan İlham Əliyevə təşəkkür edirik". Heç şübhəsiz ki, haqq dünyasına qovuşan M.Vəliyevin xeyirxah fəaliyyəti nəinki, ailəsi, yaxınları, ümumilikdə Azərbaycan cəmiyyəti tərəfindən daim xatırlanacaq, hörmət və ehtiramla yad edəcək. Allah Misirxan Vəliyevə rəhmət eləsin, ruhu şad, yeri cənnətlik olsun.

***İLHAM ƏLİYEV***

ANALİZ



# "Valideyn münasibəti uşağın psixologiyasını formalaşdırır"

"Azərbaycanda bir çox ailələr belə düşünür ki, əgər uşağın qarnı toxdursa, geyimi təmizdirsə, bu, onun üçün kifayət qədər yaxşı uşaq həyatı deməkdir". Bu sözləri SİA-ya açıqlamasında psixoterapevt Aynur İsmayılova deyib. Onun fikirlərinə görə, uşaq üçün yalnız fiziki rahatlıq – yeni yemək, təmizlik və maddi təminat onun xoşbəxt və sağlam böyüməsi üçün yetərli deyil: "Oyuncaqların çoxluğu və ya müasir şəraitdə yaşamaq da uşağın emosional ehtiyaclarını tam qarşılamır. Əslində, uşağın psixoloji və emosional inkişafı üçün ən vacib amillərdən biri valideynlərin ona göstərdiyi münasibətdir.

Ana və atanın uşaqla göz təması qurması, onunla səmimi vaxt keçirməsi, diqqət ayırması, həmçinin ana və atanın bir-birinə qarşı olan hörmətli və sağlam münasibəti uşağın psixikasında dərin izlər buraxır. Uşaq ailədə gördüyünü öyrənir, davranış modellərini, özünü ifadə etmə tərzini, hətta özünə inamını bu münasibətlər üzərindən formalaşdırır. Uşaqlar gələcəkdə cəmiyyətə, dostlarına, məktəbə və ümumilikdə sosial çevrəyə münasibətini məhz ailədə aldığı ilk təcrübələrə əsaslanaraq qururlar. Onun özünə güvəni, öz yerini tapmaq bacarığı, başqaları ilə sağlam ünsiyyət qurması birbaşa ailədəki münasibətlərin məhsuludur. Əgər uşaq valideynindən müsbət nümunə alırsa, bu, onun gələcəkdə psixoloji cəhətdən sağlam və balanslı bir şəxsiyyət kimi formalaşmasına şərait yaradır". Eyni zamanda psixoloq bildirib ki, unutmaq olmaz ki, uşaqların nə geyindiyi, nə yediyi zamanla unudula bilər, amma valideynin ona göstərdiyi münasibət, sevgi, diqqət, dəstək – bunlar uşağın yaddaşında daim qalır və onun gələcək həyatına istiqamət verir. Bu səbəbdən valideynlər bir mənalı şəkildə övladlarına qarşı münasibətlərinə hər zaman nəzarət etməli, onlarla mütəmadi göz təması qurmalı, fiziki və emosional ünsiyyət saxlamalıdırlar.

***Günel Fərzəliyeva***

*Yayda dil öyrənmək üçün effektiv metodlar mövzusu çox aktualdır, çünki yay tətili həm şagirdlər, həm tələbələr, həm də işləyən insanlar üçün özünüinkişaf üçün ideal fürsətdir. SİA mövzu ilə bağlı araşdırma aparıb. Yayda dil öyrənmək üçün effektiv metodlar:*



### Konkret hədəf müəyyən et

- Yay üçündürsə, real və ölçülə bilən bir məqsəd seç:

- Məsələn: "3 ayda 1000 yeni söz öyrənəcəm", "B1 səviyyəsində danışığa çatacam", "Sevdiyim serialı altyazısız izləyə biləcəm".

- Hədəfsiz öyrənmə motivasiyanı tez azalda bilər.

ARAŞDIRMA

# Yay tətillərini dəyərləndirin: dil öyrənməyin səmərəli yolları





### Qısa və davamlı dərs rejimi qur

- Yay tətillərində uzun saatlar öyrənmək çətindir.

- Hər gün 20-30 dəqiqə, amma nizamlı şəkildə öyrənmək daha səmərəlidir.

- Pomodoro metodu ilə (25 dəqiqə fokus + 5 dəqiqə fasilə) öyrənmək cəhd edilə bilər.

### Marağa əsaslanan öyrənmə

- Yay aylarında dil öyrənməni əyləncəli hala gətir:

- Sevdiyin serial və filmləri öyrənmək istədiyin dildə izlə (ilk öncə altyazı ilə, sonra altyazısız).

- Musiqi dinlə, sözlərini tərcümə et, karaoke et.

- Dil öyrənmə oyunları və tətbiqlər: Duolingo, Quizlet, Memrise, Drops və s.

Danışıq praktikası üçün imkan yarat

- Yay vaxtı danışıq bacarığını inkişaf etdirmək üçün:

- Dil mübadiləsi (language exchange) partnyoru tap.

- Tandem, HelloTalk, Speaky kimi tətbiqlərlə real insanlarla yazış və ya danış.

- Online danışıq dərsləri götür (italki, Cambly və s.).

### Yazı və dinləmə məşqləri et

Dinləmə üçün:

- YouTube kanalları (BBC Learning English, Easy Languages)

- Podcast-lər (Coffee Break, LingQ, Learn with Netflix və s.)

- Yazı üçün:

- Hər gün kiçik gündəliklər yaz (5-10 cümlə).

- Sosial mediada izlədiyin profillərdə comment yaz, müzakirələrə qoşul.

### Real həyatla əlaqələndir

- Gündəlik həyatda istifadə etdiyin əşyaların adını öyrəndiyin dildə yaz və yapışdır (post-it metodu).

- Marketdə, mətbəxdə və ya çöldə gördüyün əşyaların adını beynində tərcümə et.

- Xarici turistlərlə təmas qurmaq fürsətini qaçırma.

### Dil düşərgələri və yay kursları

- Əgər imkan varsa, yay aylarında təşkil olunan dil kursları, yay məktəbləri və düşərgələrdə iştirak et.

- Bəzi kurslar online olur və uyğun qiymətlidir (Coursera, Udemy, EdX və s.).

Yay ayları "boş vaxt" deyil, özünü təkmilləşdirmək üçün fürsət pəncərəsidir. Dil öyrənmək üçün əyləncəli, dinamik və davamlı metodlar seçərək yay tətilini həm rahat, həm də səmərəli keçirə bilərsiniz.

Yay ayları istirahət üçün olduğu qədər özünüinkişaf üçün də böyük fürsətdir. Dil öyrənmək prosesi darıxdırıcı və ağır olmamalıdır. Əyləncəli, sadə və sistemli üsullarla yay tətilinizi həm səmərəli, həm də motivasiyaedici bir dil öyrənmə təcrübəsinə çevirə bilərsiniz.

Ən çətin öyrənilən dil – bu, danışanın ana dilindən və öyrənmə məqsədindən asılı olaraq dəyişə bilər. Lakin ümumi olaraq, xarici dil öyrənənlər üçün ən çətin hesab edilən dillərdən bəziləri bunlardır:

### Ən çətin öyrənilən dillər

(Əsasən ingilis dilli insanlar üçün, lakin digər dillər üçün də keçərlidir

Çin dili (Mandarin)

- Dünyanın ən çox danışılan dili olsa da, öyrənilməsi çox çətindir.

- 50,000-dən çox hieroglif simvol var.

- Tonal dildir – bir sözün tonu dəyişdikcə mənası dəyişir.

- Qrammatika nisbətən sadə olsa da, oxuma və yazma sistemi mürəkkəbdir.

### Ərəb dili

- Sağdan sola yazılır.

- Fərqli əlifba və yazı tərzi.

- Qrammatikası mürəkkəbdir – fellərin kökləri dəyişir, cinsə və saylara görə fərqlənir. - Ləhcə fərqləri çoxdur – Misir, Levant, Körfəz ərəb dili bir-birindən fərqlənə bilər.

Yapon dili

- Üç yazı sistemi var: Hiragana, Katakana və Kanji.

- Kanji simvolları çin dilindən gəlmədir və minlərlədir.

- Cümlə quruluşu tam fərqlidir (Məsələn: "Mən kitab oxuyuram" "Mən kitabı oxuyuram" "Watashi wa hon o yomimasu").

### Koreya dili

- Öz əlifbası var: Hangul – sistematik və öyrənilməsi asandır, amma

- Qrammatika və cümlə quruluşu fərqlidir.

- Formal və qeyri-formal danışıq formaları çoxdur.

### Macar dili

- 18 hal forması var – bu, Avropa dillərində çox nadir görülür.

- Qrammatika və söz düzülüşü kompleksdir.

- Latın əlifbası ilə yazılır, amma fonetik və struktur baxımından fərqlidir.

Azərbaycanlılar üçün hansı dil daha çətindir?

Azərbaycan dilinə yaxın olmayan və fərqli qrammatik quruluşa malik olan dillər:

- Çin, yapon, ərəb, yəhudi (ivrit), gürcü və fin dilləri

- Bu dillərin qrammatikası, fonetikası və əlifbası çox fərqli olduğundan öyrənmək daha çox zaman və əzm tələb edir.

Ən çətin dil subyektivdir. Dil öyrənmənin çətinliyi:

- Ana dilinizin hansı dil ailəsinə mənsub olduğu,

- Öyrəndiyiniz dildəki resursların əlçatanlığı,

- Tədris üsulu və motivasiya ilə sıx bağlıdır.

Ən asan öyrənilən dil də insanın ana dilindən, dil öyrənmə təcrübəsindən və məqsədindən asılı olaraq dəyişə bilər. Lakin ümumi olaraq, dil strukturu, qrammatika sadəliyi, fonetika uyğunluğu və resurs bolluğu baxımından ən asan sayılan dillər bunlardır:

### Ən asan öyrənilən dillər

(Ümumi qlobal yanaşma və xüsusilə Azərbaycanlılar üçün uyğunluq)

### Türk dili

Azərbaycan dilinə çox oxşardır, eyni dil ailəsinə (türk dilləri) aiddir. Qrammatika və söz quruluşu demək olar ki, eynidir. Fonetik olaraq yazıldığı kimi oxunur. Söz ehtiyatı ortaqdır: çox sayda eyni və ya yaxın sözlər. Azərbaycanda televiziya, serial, musiqi və sosial media vasitəsilə təmas çoxdur.

İsveç dili (ingilis dilini bilənlər üçün)

Qrammatikası sadədir, cins fərqləri azdır. Latın əlifbasından istifadə edir. İngilis dilinə çox bənzər sözlər var. Dil öyrənmək üçün pulsuz resurslar boldur (Duolingo, LingQ və s.)

### Niderland dili

İngilis və alman dilinə oxşarlığı yüksəkdir. Qrammatika nisbətən sadədir, gündəlik danışıq asan qurulur. Qlobal mühitdə yayılmış deyil, amma öyrənməsi rahat dillərdəndir.

### İspan dili

Fonetik olaraq yazıldığı kimi oxunur. Sadə qrammatika (bəzi zamanlar istisna olmaqla). Dünyanın 20-dən çox ölkəsində danışılır – motivasiyaverici və praktik dildir. Musiqi, serial, podcast kimi çox sayda öyrənmə materialı var.

### İtalyan dili

Sözlərin yazılışı və tələffüzü eynidir. Emosional, musiqili danışıq stili öyrənməni əyləncəli edir. Sadə qrammatika və geniş söz ehtiyatı.

### Azərbaycanlılar üçün ən asan dillər:

Türk dili (praktiki olaraq artıq bilinir)

Özbək, türkmən, qazax kimi digər türk dilləri

Rus dili (çoxlarının əvvəlcədən bazası var, lakin qrammatika bir qədər çətindir)

İngilis dili (böyük resurs dəstəyi və beynəlxalq ehtiyac səbəbilə)

"Asan" dil sadəcə dilin quruluşuna deyil, həm də: Sizin dilinizi hansı dillərlə əhatə etdiyinizə, Nə qədər motivasiya və maraq göstərdiyinizə həmin dildə nə qədər resursa sahib olduğunuza bağlıdır.

*Ayşən Vəli*

# Şuşanın musiqi tarixində Hacıbəylilər imzası



Deyirlər, elə şəhərlər var ki, musiqi onun hər daşına, qalasına, abhavasına hopub. Bu nadir şəhərlərin dünya musiqisində özünəməxsus yeri var. Avstriyanın Vyana, İtaliyanın Neapol, Azərbaycanın isə Qarabağının tacı, Zaqafqaziyanın konservatoriyası Şuşa şəhəri. Bu şəhər sadalamaqla bitməyən böyük musiqiçilər nəsli yetişdirib. Musiqi sənəti tariximizdə yeri olan Mir Möhsün Nəvvab, Xarrat Qulu, Hacı Hüsü, Sadıxcan, Məşədi İsi, Əbdülbağı Zülalov, Cabbar Qaryağdıoğlu, Keçəçi oğlu Məmməd, Məşədi Məmməd Fərzəliyev, İslam Abdullayev, Seyid Şuşinski, Bülbül, Zülfi Adıgözəlov, Xan Şuşinski, Məşədi Cəmil Əmirov, Qurban Primov, Süleyman Ələsgərov kimi böyük sənətkarlar nəsli yetişdirib. Şərq musiqisinin məşhur tədqiqatçılarından olan V. Vinoqradov yazırdı: "Şuşada musiqi çoxdur. Azərbaycanın hər



hansı rayonundan daha çox xalq mahnılarını, rəqslərini, xanəndə və sazəndələrini burada eşitmək olar. Şuşa qədim zamanlardan musiqinin beşiyi kimi məşhurdur və bütün Zaqafqaziyada xalq musiqi istedadlarının tükənməz bulağı kimi şöhrət qazanmışdır. "Şuşa musiqiçiləri" Azərbaycan musiqisinin tarixini yaradırdılar və onu yalnız vətənlərində deyil, digər Şərq ölkələrində təqdim edirdilər". Şuşa konservatoriyasının parlaq nümayəndələri dünyanın bütün qitələrində Azərbaycan musiqisini ləyaqətlə təmsil edərək ona şöhrət gətirmişlər.

Qarabağ bölgəsində yerləşən Azərbaycanın mədəniyyət paytaxtı Şuşa ölkəmizin ən mühüm şəhərlərindən biri olmuşdur. Onun dövrəsində böyük və güclü sədd çəkilib, çoxsaylı sənətkar məhəllələri yaranıb. Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulub və ilk çağlarda şəhəri Şuşa adı ilə yanaşı xanın şərəfinə Pənahabad adlandırılan Şuşada 17 məhəllə vardı və hər məhəllədə hamam, məscid və bulaq yerləşirdi. Pənah xanın qala üçün seçdiyi yer əvvəllər tamamilə meşə ilə örtülü bir sahə idi və üç tərəfdən sıldırım qayalarla əhatə olunduğundan, gələcək şəhər üçün əlverişli təbii səngər rolunu oynayırdı. Pənah xan tərəfindən qısa bir müddət ərzində salınan bu şəhər əvvəllər öz banisinin adı ilə "Pənahabad" adlanırdı. Lakin sonralar şəhərin yaxınlığında yerləşən Şuşakəndin adıyla "Şuşa qalası" adlanmağa başlandı. XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdi. Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırırdılar. XX əsrin əvvəllərinədək Azərbaycanda, o cümlədən Şuşada musiqi sənəti, ilk növbədə xanəndə və sazəndələr ustad-şəyird zəminində inkişaf edirdisə, artıq XX əsrdən başlayaraq peşəkar musiqi təhsili daha geniş sahələri əhatə edərək, sistemləşdirilməyə və kütləviləşməyə doğru istiqamət götürmüşdü. Tarix boyu bu qala düşmən basqınlarına, hücumlarına məruz qalsa da, heç vaxt əyilməmiş, həmişə alınmaz olmuşdur. Şuşa 28 il işğal altında olsa da əyilmədi və azadlığına qovuşdu.

## HACIBƏYLİLƏR ŞƏCƏRƏSİNİN



## ŞƏHƏRİN İCTİMAİ-MƏDƏNİ HƏYATINDA SİLİNMƏZ İZLƏRİ

Bu tarixi şəhərdə məşhur şəcərələr, nəsillər yetişmiş, əməlləri, istedadları ilə silinməz salnamələrə həkk olundular. Şuşanın məşhur nəsillərindən olan Hacıbəylilərin fəaliyyəti bu şəhərin ictimai-mədəni həyatında silinməz iz salmışdılar. Xatırladaq ki, Hacıbəylilərin ulu babası Molla Hacı bəy Qarabağı olmuşdur. O, Şuşa şəhərində sayılıb-seçilən, savadlı bir alim idi. Məhəllələrin dini işləri ilə məşğul olurdu. Molla Hacı bəyin Məhəmməd bəy adlı oğlu var idi. Qızı Bəşirət xanım Nəsib bəy Yusifbəylinin nənəsidir. Məhəmməd bəy 1814-cü ildə Şuşada anadan olmuşdu. O, mədrəsə təhsili almış və Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin hərəmi Bikə ağanın sarayında mirzə işləmişdi. Mənbələrdə qeyd olunur ki, Məhəmməd bəy göstərdiyi xidmətlərinə görə xan Vərəndə mahalının İsfəhançıq kəndinin bir hissəsini ona bağışlamışdı. Molla Məhəmməd bəyin Qəhrəman bəy, Əbdüləziz bəy, Əbdülhüseyn bəy və Hacı bəy adlı oğulları vardı. Molla Hacı bəyin törəmələri Hacıbəyli soyadını daşıyırlar.

Hacıbəylilər şəcərəsinin ictimai-mədəni həyatımızda rolu müstəsnadır. Əbdülhüseyn bəy Hacıbəyli, İsmayıl bəy Hacıbəyli, Zülfüqar Hacıbəyli, Üzeyir Hacıbəyli, Ceyhun Hacıbəyli, Soltan Hacıbəyli, Niyazi Tağızadə-Hacıbəyli və başqaları öz fəaliyyətləri ilə tanınaraq, seçilmişdilər.

## MUSİQİ TARİXİMİZDƏ İNQİLABİ DƏYİŞİKLİKLƏR

XX əsrin ilk illəri Azərbaycan musiqi sənəti üçün intibah və inkişaf dövrüdür. O illərin zəngin sənət tarixi neçə-neçə onillikləri belə əvəzlədi. Həmin dövrdə Bakının musiqi həyatı qaynar olsa da ictimai-siyasi hadisələrin gedişatı müxtəlif maneələrin yaşamasına gətirib çıxarmışdır. Tarixdən bizə bəllidir ki, həmin illərdə Azərbaycan musiqi tarixində də inqilabi dəyişikliklər baş verirdi. Bu dövr musiqisinin mühüm xüsusiyyəti, xalq musiqisinin geniş təbliği - Şərq konsertləri adlandırılan böyük konsertlərin təşkili, Azərbaycanda milli operanın yaranması, qrammafon vallarının yazılması ilə tarixə həkk oldu. Azərbaycanın mütərəqqi dünyagörüşlü ziyalıları xalqın yeni mədəni ənənələrlə tanışlığı istiqamətində böyük işlər gördü. Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının tamaşaya qoyulması Azərbaycanın musiqi həyatına xüsusi bir yenilik gətirdi. Bu, nəinki Azərbaycanda, bütün Yaxın Şərqdə ilk opera idi və bu opera ilə yeni sənətin möhtəşəm özülü qoyuldu. Üzeyir Hacıbəyli ilə yanaşı, qardaşı Zülfüqar Hacıbəyli də əsrimizin ilk illərindən başlayaraq, Azərbaycan musiqili teatrının yaranması uğrunda mübarizəyə qoşulmuş, məhz onun müstəqil bəstəkarlıq fəaliyyətinin ilk təcrübələri də həmin dövrlə bağlıdır. "Əlli yaşında cavan", "Evliykən subay", "On bir yaşında gəlin" və ya "Varlı" operettaları, "Aşıq Qərib" operası, bir sıra kütləvi mahnılar və s. əsərləri yaradıcılığı üçün səciyyəvidir.

1911– ci ildə Üzeyir bəy və Zülfüqar bəy Hacıbəylilərin rəhbərliyi ilə opera-operetta artistləri truppası yarandı. O dövrün bir sıra məşhur artistləri truppanın tərkibinə daxil olmuş, Bakıda Qafqazın başqa şəhərlərində tamaşalar göstərmişlər. Truppanın qastrol səfərlərində repertuarı Ü.Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm" operaları, "Ər və arvad", "O olmasın, bu olsun" musiqili komediyaları, Z.Hacıbəylinin "Aşıq Qərib" operası, "Evliykən subay" musiqili komediyasından ibarət idi.

Bəstəkarın M.Füzuli adına Azərbaycan Əlyazmalar Fondunda saxlanılan şəxsi arxivində əldə olunan materiallar onun zəngin irsi ilə tanışlıq yaradır. Belə ki, "Onda elə, indi belə", "Yarış" operettaları "Mən ağlaram, o gülər" komediyası, "Biçarə Xavər", "Məşədi Xudu" operettaları, "Məlikməmməd", "Nüşabə" operaları və s. musiqili komediya, opera librettosu, musiqi qeydləri ilə yanaşı, bəstəkarın bir neçə məqaləsi də saxlanılır. Bu əsərlərlə tanışlıq Azərbaycanın mədəni-tərəqqisinin hər zaman inkişafda olduğunu göstərən faktdır.

## AZƏRBAYCAN MUSİQİSİNDƏ YENİLİK

Milli mədəniyyət tariximizdə - opera sənətinin, eyni zamanda, musiqi teatrının təşkili və inkişafında xidmətləri olan sənət adamları sırasında göründüyü kimi, Zülfüqar Hacıbəylinin öz imzası var. Ümumilikdə isə, sənətin inkişafında Hacıbəylilər ailəsi pozulmaz səhifələr yazıb. Zülfüqar Hacıbəylinin da musiqi teatrımızın inkişafı yolunda yazıb-yaratdıqları əsərlər əsil fədakarlıqdır. Onun tərcümeyi-halından oxuyuruq. Zülfüqar Hacıbəyli 1884-cü ildə Şuşa şəhərində anadan olub. Uşaqlıq illəri bu ecazkar musiqi beşiyində keçib. Erkən yaşlarından şəhərin musiqi məclislərində iştirak edib, istedadlı xanəndələrin ifasında xalq mahnılarını dinləyib. Demək olar ki, şəhərin mədəni ab-havasının ona gələcək həyat yolunu müəyyən



etməkdə xeyli təsiri olub. Gənc yaşlarından musiqiyə əbədi bağlanan Zülfüqar Hacıbəyli ilk biliyini xalq musiqisindən alıb. O dövrdə, yeni XX əsrin əvvəllərində opera və operetta yazmaq Azərbaycan musiqisində yenilik idi. Onun yaratdığı-bəstələdiyi əsərlərdən biri "Aşıq Qərib" operasıdır. O vaxt bu əsər ictimai-mədəni həyatda böyük marağa səbəb olur. Əsərin səciyyəviliyi onda idi ki, opera xalq musiqisi ilə Avropa musiqisinin sintezini özündə əks etdirirdi. Həmin dövrdə Zülfüqar Hacıbəyli bir sıra librettolara musiqi yazır.

Sənət tariximizdə onun "50 yaşında cavan" (1910), "Varlı" (1911), "Evliykən subay" (1916) musiqili komediyaları bu gün də sənət dünyamızın bəzəyidir. Zülfüqar Hacıbəyli 1935-ci ildə "Almaz" filminə musiqi yazır. Məlumdur ki, bu film kino tariximizdə ilk səsli filmdir. Bu ərəfədə yazdığı "Kölə qadınların rəqsi" adlı simfonik əsəri ona böyük şöhrət gətirir. Onun daha iki – "Nüşabə" və "Üç aşıq" operası isə tamamlanmamış qalır.

## REPRESSİYANIN ACI HƏQİQƏTLƏRİ - MÜHACİRƏTDƏ QÜRBƏT ÖMÜRLƏR

Yaradıcılığa mahnı janrı ilə başlayan Zülfüqar Hacıbəyli XX əsrin 20-30-cu illərində çox məşhurlaşır. Bəstələdiyi nəğmələri – "Kəndçi qızı", " "Çoban qız", "Əsgər nəğməsi" və digər mahnıları dildə-ağızda dolaşır. Onun yaradıcılığı rəngarəngdir. Milli musiqi xəzinəmizə bəxş etdiyi töhfələr çoxdur. İstedadlı bəstəkarın əsərlərinin hər birini ayrı-ayrılıqda sənət məbədimizin qızıl kərpici hesab etmək olar. Təəssüf hissi ilə qeyd edək ki, o dövrdə - 1937-ci il repressiyasının acı yelləri Hacıbəylilər nəslindən də yan keçmir. Bu görkəmli nəslin gözəl yadigarları doğma yurd-yuvalarından pərən-pərən düşür. Bəziləri mühacirət edir, ömürlərini qürbətdə başa vururlar. Çox keçmir ki, İkinci Dünya müharibəsi başlayır. Müharibə acı rüzgarın səmtini dəyişir. Ölkədə vətənpərvərlərə, milli təəssübkeşlərə qarşı bir az yumşalma hiss olunur. Lakin 37-ci ilin ab-havası, yəni qorxusu tam çəkilməmişdi. Buna baxmayaraq, Üzeyir və Zülfüqar Hacıbəyli qardaşları qarşılaşdıqları ədalətsizliklərə, ziddiyyətli münasibətlərə mətanətlə sinə gərirlər. Böyük dözümlülük göstərərək milli musiqimizin inkişafında əllərindən gələni əsirgəmirlər. Həqiqətən də, onların yazdıqları bir çox əsərlər dövrün təqiblərinə, qadağalarına məruz qalır, illərlə arxivlərdə saxlanılır. Ancaq sonda haqq-ədalət öz yerini tutur - hər iki bəstəkar qardaşın xidmətləri qiymətləndirilir. Zülfüqar Hacıbəyli milli musiqimizin inkişafı yolunda göstərdiyi xidmətlərə görə, 1943-cü ildə əməkdar incəsənət xadimi adına layiq görülür.

Musiqili Komediya Teatrının əsasını qoyan görkəmli sənət xadimlərindən biri kimi Zülfüqar Hacıbəyli respublikanın ictimai-mədəni həyatında da fəallıq göstərib. Bu sahədə olduqca çox çalışıb. Lakin yazıb başa çatdıra bilmədiyi çoxlu sayda əsərləri qalıb. Arxivdə müxtəlif janrda yazdığı yarımçıq qalmış əsərləri var. Vaxtsız əcəl ömrünün son günlərinə kimi yaradıcılıqla məşğul olan Zülfüqar Hacıbəylinin başladığı işləri tamamlamağa aman vermir. O, 1950-ci ilin payızında dünyasını dəyişir. Ancaq Zülfüqar Hacıbəylinin adı Azərbaycan musiqi mədəniyyəti tarixində həmişəlik qalır.

***Zümrüd BAYRAMOVA***

# 33 il əvvəl tarixin bu günü

*Təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı iki yüz ilə yaxın bir dövrdə yeridilən soyqırımı siyasətinin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq olub. Bu mənfur ideyanı reallaşdırmaq istiqamətində ardıcıl olaraq hərbi, ideoloji və təşkilati xarakterli tədbirlər həyata keçirilib.*





Azərbaycanlılar tədricən doğma torpaqlarından qovulub, onların ərazilərində başqa ölkələrdən köçürülmüş ermənilər məskunlaşdırılıb. Azərbaycanda zaman-zaman ermənilər tərəfindən terror aktları törədilmiş və xalq olaraq bu terror aktlarının acı nəticələrini yaşamışıq.

Azərbaycanlılara qarşı yeridilən soyqırımı siyasətinin tarixi əsrləri əhatə edir və hadisələri ardıcıllıqla izləsək, görərik ki, ötən əsrin əvvəllərində - 1905-1906 illərdə İrəvan və Gəncə quberniyalarının 200, Şuşa, Cəbrayıl və Zəngəzurun isə 75 azərbaycanlı kəndini ermənilər talan ediblər. Hadisələrin davamı olaraq 1918-ci ilin mart ayında soyqırımı törədiblər. 30 martdan 4 aprel tarixinə qədər ermənilərin törətdikləri cinayətlər nəticəsində minlərlə dinc azərbaycanlı milli mənsubiyyətinə görə məhv edilib. Ermənilər evlərə od vurub, insanları diri-diri yandırıblar. İnsanlığa sığmayan bir vəhşilik törədiblər. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri də dağıdaraq, Bakının böyük bir hissəsini xarabalığa çeviriblər. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilib. Onu da qeyd edək ki. erməni vandallığının nəticəsində azyaşlılar və silahsız qadınlar xüsusi qəddarlıqla qətlə yetirilib. Ermənilər Şamaxı qəzasında 1653-ü qadın və 965-i uşaq olmaqla ümumilikdə 7000-dən çox insanı soyqırıma məruz qoyublar. Şamaxıda 58, Quba ərazisində 122, Qarabağın Dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan Quberniyasında 211 kənd yerlə yeksan olunub. Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu köməyə gəlməsəydi, bu qırğının miqyası daha dəhşətli olardı. Daşnak quldur dəstələrinə qarşı vuruşlarda 5 min azərbaycanlı və min nəfərədək türk həlak olmuşdur. 1988-ci ildən başlayaraq erməni millətçiləri azərbaycanlıları Ermənistandan qovmağa, Qarabağı isə Azərbaycandan ayırmağa başladılar. Qukarkda baş verən qanlı hadisələr nəticəsində 70 nəfər öldürülür, onların 21-i qadın 6-sı uşaq olur. Vardenis rayonunda isə 40 nəfər öldürülür. Soydaşlarımız - 250 min azərbaycanlı öz ev-eşiyindən, tarixi torpaqlarından qovulur.

## XANKƏNDİNİN MƏRKƏZİ MEYDANINDA MİTİNQLƏR

Tarixən Azərbaycan xalqına qarşı soyqırım siyasəti həyata keçirən erməni millətçiləri öz vəhşi simalarını bir daha bütün dünyaya nümayiş etdirərək Xocalını yerlə-yeksan etdilər. Xocalı soyqırımı erməni terrorizminə, onların işğalçılıq siyasətinə, insanlığa sığmayan əqidə və məsləkinə qarşı dərin nifrət hissi oyadır.

## *Azərbaycana məxsus döyüş helikopteri ermənilər tərəfindən raketlə vuruldu*



Xocalıda terror əməliyyatının planı əvvəldən hazırlanmışdır. Xocalıda erməni terrorizminin amansızlığını təsdiq edən faktlardan biri də odur ki, terror əməliyyatı zamanı istifadəsi qadağan olun xüsusi təhlükəli kütləvi qırğın silahlarından geniş istifadə edilmişdi.

Bəli, ermənilər terroçudurlar. Tarixi faktlar bunu göstərir. 34 il bundan əvvəl 20 sentyabr 1991-ci ildə Xankəndi şəhərində Şuşa-Ağdam yolunu birləşdirən Xəlfəliçay üzərindəki körpü partladılmışdır. Cinayəti törətmiş Artur Amramyan həbs olunmuş və 15 il müddətində azadlıqdan məhrum olmuşdur. Bu o illərdə Xankəndidə törədilmiş ilk və son terror deyildi. Qısa bir şəkildə son xronologiyaya nəzər salsaq görərək ki, şəhərdə terror, sui-qəsd və hücum aktları kifayət qədər törədilib. 1988-ci ildə Ermənistan SSR-dən gəlmiş erməni millətçi emissarlarının təşkilatçılığı ilə Xankəndində ermənilər Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsi tələbi ilə icazəsiz mitinqlərə başlanılıb. İlk mitinq 13 fevral 1988-ci ildə Xankəndinin mərkəzi meydanında təşkil olunub. Bundan bir həftə sonra, 20 fevralda Dağlıq Qarabağ Ali Sovetindəki erməni deputatlar qanunsuz olaraq vilayətin Azərbaycanın tərkibindən ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi məsələsini qaldırıblar. Həmin aylardan etibarən ermənilərin azərbaycanlılara qarşı terror hərəkatı başlanıb. Xankəndi erməniləri Şuşaya gələn su kəmərini zəhərləməyə cəhd ediblər. 20 fevralda Xankəndi mərkəzi xəstəxanasında praktika keçən iki azərbaycanlı tələbə qız ermənilər tərəfindən zorlanıb. 2 gün sonra isə Ağdamdan yüzlərlə azərbaycanlı gənc bunun qisasını almaq üçün Xankəndinə yürüş edib və onların qarşısı Əsgəranda silahlı ermənilər və rus əsgərləri tərəfindən kəsilib. Baş verən qarşıdurmada iki azərbaycanlı qətlə yetirilib və çoxlu sayda insan isə yaralanıb. Bu gənclər sonradan illərlə davam edəcək Dağlıq Qarabağ münaqişəsinin ilk qurbanları olublar. Bu bir daha ermənilərin terrorçu olduğunu sübut edən dəlillərdir. Belə ki. 1988-ci ilin yayında Xankəndi Uşaq Xəstəxanasında həkim-rentgenoloq işləyən əslən ağdamlı şəxs ermənilər tərəfindən xəstəxananın həyətində döyülərək, qətlə yetirilib. 28 iyun 1989-cu il tarixində ermənilər tərəfindən Badara qəsəbəsindən Meşəliyə gedən şosse yoluna qoyulmuş partlayıcı qurğunun işə düşməsi nəticəsində maşındakı 6 nəfər mülki azərbaycanlı ağır yaralanıb. Bütün bunlar tarixin danışan faktlarıdır. 1990-cı il may ayında Bakı-Xankəndi qatarı və Xankəndi-Ağdam avtobusunun partladılması hər kəsin yaxşı yadındadır. 1990-cı ilin iyununda xankəndili Əşrəf və Ələmşah adlı iki qardaş 336-cı moto-atıcı alayın qarşısında diri-diri yandırılıb.

## ERMƏNİ FAŞİST İDEOLGİYASI

İllər uzunu ölkəmizin demək olar ki, hər bir yerində ermənilər tərəfindən törədilən bu və ya digər faciələri, qətliamlar yaşamışıq. Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur. Mənfur qonşularımız bizə qarşı məkrli, çirkin niyyətlərini həyata keçimişdilər. Hələ sovet dövründə yaşadığımız illərdə 8 sentyabr 1984-cü ildə Bakıda 106 saylı sərnişin avtobusunun erməni terrorçusu Henrix Vartanov tərəfindən partladılması zamanı iki uşaq anası olan Surxalizadə Fatma həlak olmuş, üç nəfər yaralanmışdır. Hadisə o vaxt SSRİ-nin xüsusi xidmət orqanları tərəfindən terror aktı kimi deyil, onunla Vartanovla müdiriyyət arasında olan narazılıq kimi qiymətləndirildi, Hadisənin təşkilatçısı olan Henrix Vartanov psixi xəstə kimi qəbul edilərək həbsdən azad edilərək məcburi psixi müalicəyə göndərildi. Əlbəttə ki, bu erməniperəst qüvvələrin himayəçilərinin əməlləri idi. 16 sentyabr 1989-cu ildə erməni terrorçuları Tbilisi-Bakı reysi ilə işləyən sərnişin avtobusunu partlatmışlar. 5 adam həlak olmuş və 25 nəfər yaralanmışdır. 13 fevral 1990-cı ildə Yevlax-Laçın yolunun 105-ci km-də "Şuşa-Bakı" marşrutu ilə hərəkət edən avtobus partladılmış, nəticədə 13 nəfər ağır yaralanmışdır. 24 mart 1990-cı ildə "Noraşen-Bakı" yolunun 364-ci km-də dəmir yolu partladılmış, nəticədə teplovoz və 3 vaqon partladılmış, 150 metrdən çox dəmir yolu xətti yararsız hala düşmüşdür.

Bu siyahını artırmaq üçün əsas dəlillər çoxdur. Hər bir terror aktında insan ölümü diqqəti çəkir. Bu terror aktları qəddar, faşist xislətli əməllərdir ki, xalqımız bunu yaşayıb. 44 günlük Vətən müharibəsində də xalqımız ermənilərin təcavüzkar siyasəti ilə üz-üzə qaldı. Müharibə getməyən ərazilərimizdə Gəncədə, Mingəçevirdə, Bərdədə yaşından asılı olmayaraq uşaq da, gənc də. qoca da bu terrorların acı nəticəsini yaşamalı oldu. Neçə-neçə qurbanlarımız oldu. Ermənistan hərbi-siyasi rəhbərliyinin Gəncədəki mülki obyekt və şəxslərə qarşı törətdiyi terror aktı dünyaya çatdırıldı. Gəncə şəhəri 4 oktyabr 2020-ci il tarixindən başlayaraq Ermənistan Silahlı Qüvvələri tərəfindən davamlı raket atəşinə tutuldu. 11 oktyabr 2020-ci il tarixində saat 02:00 radələrində Ermənistan Silahlı Qüvvələri daha bir terror törətdilər. Nəticədə "Qələbə parkı"nın ətrafında yerləşən yaşayış binaları dağılıb, 5-i qadın olmaqla 10 nəfər həlak olub, 6-sı uşaq, 16-sı qadın olmaqla 35 nəfər yaralanıb. Ermənistanın Gəncəyə teror aktı nəticəsində 3 uşaq hər iki valideynini itirib. Gəncədə olan ölkə və yerli əhəmiyyətli tarixi abidələrə, dini məbədlərə, mədəniyyət obyektlərinə, habelə təhsil müəssisələrinə ciddi ziyan dəyib. Digər şəhərlərdə Bərdədə, Mingəçevirdə də xalqımız bu ağrı və acıları yaşadı.

Tarixin bu günündə isə 6 avqust 1992-ci il tarixində 33 il bundan əvvəl Qarabağ müharibəsi zamanı Azərbaycana məxsus döyüş helikopteri Qasapet yaxınlığında ermənilər tərəfindən raketlə vurulub. Vertolyotun baş komandiri Zakir Məcidov, təyyarəçi operator Ruslan Polovinko, sərrast nişançı-snayperçi Cavanşir Rəhimov həlak olurlar. Bu erməni faşist ideolgiyasıdır. Balaca Zəhraların qətli faşist düşmənin təfəkkürü, mövqeyidir ki, bu terrorlardan xalqımız əziyyət çəkir.

***Nəzakət ƏLƏDDİNQIZI***





*Hey yaddaşımın zəifliyindən şikayətlənirəm. Haqlıyam da. Bu şoqərib yaddaşım çox vaxt məni pərt vəziyyətə salır. Məsələn, birisi ilə rastlaşıram, bilirəm ki, tanıyıram, amma kim olduğunu yadıma sala bilmirəm ki, bilmirəm. Deyəcəksiniz ki, əhəmiyyətli birisi olsa idi, yadda qalardı. Olsun, razıyam, haqlısınız. Lakin bu görüşlər sayəsində son vaxtlar özümdə aktyorluq məharətini də kəşf etmişəm. Özümü o yerə qoymuram, gülə-gülə hal-əhval tuturam, təbii ki, xitab etmədən (Bu arada, əgər sizinlə görüşəndə adınızla xitab edirəmsə, deməli, problem yoxdur, sizi xatırlayıram).*

# Oyun oynayaqmı?

Hələ o günlərdə uzaqdan birinin üzündə saf təbəssüm mənə doğru yaxınlaşdığını görüb, ürəyimdə: “Bu qadını haradan tanıyıram?”- deyirdim. Elə isti salamlaşdı ki, utanıb, ölüb, yerə girdim. Yaxşı ki, çox ünsiyyətcil idi, dayanmadan danışırdı, mən də kim olduğunu xatırlamağa çalışırdım.

-Xəstəxanada hamı sənin xətrini istəyirdi.

Məlum oldu ki, təqribən 26-27 il əvvəl bir yerdə işləmişik.

Əlqərəz, yaddaşıma məəttələm. Deyəcəksiniz ki, pahoo, bizim dünən yediyimiz yadımızdan çıxıb, sən 26 il əvvəldən danışırsan. Məsələ burasındadır ki, təqribən eyni zaman uzaqlığında hadisələr var ki, yaddaşımdan silinmir. Bu necə olur? Yaddaşım mənimlə oyun oynayır?









Aqillər həmən anladılar: “Sənin dərdin başqadır”.

Başqadır hə, başqadır. Mənim dərdim oyundur.

24 ildən bəri yadımda qalan bir hadisə var: 2001-ci il. Yayın isti, “cırcırama dövrü”dür. Səhər-səhər mütaliə ilə məşğulkən həyətdə oynayan uşaqların səs-küyündən fikrimi toplaya bilmirdim. Uşaqlara hirslənmək üçün pəncərəyə yaxınlaşdıqda, nitqim qurudu. Gördüyüm mənzərə ürəkağrıdan idi. Hələ danışıqlarına qulaq verməmiş hansı səhnəni qurduqlarını anladım. 7-8 yaşlı uşaqlar bir cərgəyə düzülmüş, yanlarına da özləri boyda boş qutuları yığmışdılar. (Görəsən, bu qutuları toplamaq üçün neçə zibilxana gəzmişdilər?)

Uşaqlardan biri digərini qəsdən itələyərək səs-küy saldı:

-Növbəyə girmə! Yoxsa gedib deyəcəyəm, gəlib səni lap axıra qoyacaqlar.

Cərgənin ortasından başqa biri: “az, deyir, yaman anbara vururlar malları. Onsuz da, bir pul qalmır. Qara pasporta altı min verirlər. Mənim elə yol pulum iki şirvandır da. Tobaa, mənə qalan elə bir şirvan olur”, - deyə səsləndi.

Dəhşət içindəydim. Bu zavallı körpələr valideynləri ilə belə hadisələrin azmı şahidi olmuşdular? Hələ mən onların pul məzənnəsindən peşəkarcasına baş çıxardıqlarını demirəm. Rəqəmləri yoxlamaq istəyən o dövrün adamlarından soruşa bilər. Həmin ilin yayı altı min İran tüməni üç şirvana, yəni, otuz min manata bərabər idi. Uşaqlar gözləri ilə gördükləri və analarının danışdıqlarını süd əzbər etmişdilər. Onlar şahidi olduqları mənzərəni səhnələşdirmişdilər. Yalan yox idi. Əlahəzrət fakt meydan sulayırdı.



Baxa-baxa qaldım, hirslənmədim də. Sadəcə ürəyim ağrıdı. Mənzərə acınacaqlı olsa da, uşaqların məharətinə söz yox idi.

Görəsən o uşaqların bizim uşaqlığımızda oynadığımız oyunlardan xəbəri yox idi? Son zamanlar əllərindən telefon yerə düşməyən uşaqlar da fikrimi yaman məşğul edir. Siz heç küçədə “dama-dama” oynayan uşaq görmüsünüzmü? “Dama-dama”nın, “ip sallama”nın zamanı keçib? İnsafən, top oynayan uşaqları az görmürəm. Amma indi uşaqlar əsasən telefon oynadır. İndi telefon at oynadır. Lakin hər uşaq da telefonu oynada bilmir.

Uşaqlar “Sehrli xalat”, “Ögey ana”, “Qaraca qız” kinolarının adlarını belə eşitməyiblər, qaldı ki, izləmək. Deməyim onu ki, indi uşaqlar telefonda oyun oynayırlar, kinoya baxmırlar, dil öyrənmirlər ,kitab oxumurlar. Halbuki bunların hər birini telefonda etmək olar. Çətin ki, bir valideynin You Tube-da milli kino və yaxud cizgi filmi açaraq kiçik yaşlı övladına seyr etdirdiyini görək. Ağıllı valideynlər animasiya filmlərinə müraciət edirlər, bunlar xarici animasiyalar olsalar da (dil öyrənmək üçün köməkçidir). Əksəriyyət isə telefonu verir uşağın əlinə, özünün də başı qarışır mətbəxə. Uşaq da qurdalaya-qurdalaya telefonun bütün sirlərinə vaqe olaraq lazımlı-lazımsız hər şeyə baxır.

Bir tərəfdən də zumer(zoomer) və alfa(alpha)nəsillərinin təsəvvürlərində internetsiz dünya mövcud deyil. Onlara virtual kontaktlar, virtual dostlar maraqlıdır. Bu dostların ən nüfuzlusu da ChatGPTdir. Bu arada, sosial şəbəkələrin əleyhinə deyiləm, qadjet, cihaz asılılığının əleyhinəyəm. Qızımın Z nəslinin nümayəndəsi kimi 13 yaşından aktiv sosial şəbəkə istifadəçisi olması ötən il Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil olunan ali məktəblərə qəbul imtahanında 661 bal toplamasına əngəl olmadı.

Texnologiyanın həyatımızın vacib bir parçası olduğunu qəbul etsək də, sosial şəbəkələrdən şüursuz istifadənin, zərərli videoların uşaqların zehninin, düşüncəsinin hakimi olmasını qəbul etməməliyik. Əsl faciə valideyn laqeydliyidir.

***P.S.*** *Bu məqamda yazını yekunlaşdırmaq istəyirdim ki, uşaqlıqda oynadığım oyunlardan dolayı burnumun ucu göynədi bircə anda. Bəlkə də bu oyunların adları da belə deyil, ancaq biz oyunları belə adlandırırdıq: “Ortayagirmə”, “Gizlənqaç”, “Bənövşə, bəndə düşə”. Və yadıma bir də o gəlir ki, bu oyunlarda mən heç vədə uduzmazdım.*

***P.S.S.*** *Hansı oyunları oynayırsınız, oynayın, təki oyun qurmayın. Bilin ki, “Allah oyun quranların ən xeyirlisidir” (Qurani-Kərim. Ali-İmran surəsi, 54-cü ayə).*

*Qeyd: Yazıda ChatGPT “dostumun” köməyindən istifadə etməmişəm.*

***Səbinə Əlincəli***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.***

# Böyük ZƏFƏR: xalqın qürur və namusunun xilasından ötən 5 il

***Zaman göstərdi ki, məhz Heydər Əliyev kimi dahinin, gözəl ailə başçısının, ləyaqətli vətəndaşın, ictimai xadimin, vətənpərvər insanın ailəsində cənab İlham Əliyev kimi övlad böyüyə bilərdi. Bu övlad ailənin bütün üstün cəhətlərindən zaman-zaman aldığı dəyərlərlə yumruğu boyda ürəyinə Azərbaycan böyüklükdə Vətən sevgisini elə sığdıracaqdı ki, bu sevgi bir gün xalqın, millətin xilasına çevriləcək, 30 il işğal altında qalan torpaqlara görə başını dik tuta bilməyən xalqın başı zirvələrə qalxacaqdı. Xalqa qürurunu, namusunu qaytaracaqdı. Azərbaycanın işğal olunan torpaqlarının azad olunması ilə tarixin 270 ildən artıq zaman kəsiyinin axarını dəyişəcəkdi.***





### Qarabağ məsələsi bir an da unudulmadı

Ulu Öndər Heydər Əliyevin Azərbaycana məhəbbətinin, sevgisinin, torpaqlarımızın bir gün geri qaytarılması üçün mübarizəsinin davamçısı oldu cənab İlham Əliyev. O, tək ailəsinin deyil, ümumilikdə Azərbaycan xalqının övladı oldu. Dövlətimizin başçısı kimi fəaliyyəti dövrünün hər anı ölkəmizin inkişafına, dünyada tanınmasına, bir də ata nəsihətlərinin həyata keçirilməsinə sərf edilib.

Qarabağ məsələsi isə bir an da unudulmadı. Liderimizin bütün bayramlarda xalqa müraciətlərində Qarabağın bir gün azad olunacağına əminliyini dinlədik. Bu torpaqların düşmən tapdağı altında inləməsini ürək yanğısı ilə yaşadığını hiss etdik. Onların bir gün yenə də bizim olacağına xalqı əmin etdiyini gördük...



Prezidentimiz ən mötəbər tədbirlərdə Qarabağla bağlı dünyaya üz tutdu. Qarabağ həqiqətlərini onlara çatdırdı. Bütün dünyanı haqq səsimizə səs verməyə çağırdı. Bu qədim torpaqların Azərbaycana məxsusluğunu tarixi faktlarla sübut etdi. Bizim Prezidentimiz yeri gələndə tarixçi oldu, yeri gələndə coğrafiyaçı, yeri gələndə siyasətçi, yeri gələndə sıravi azərbaycanlı. Mükəmməl olaraq rus və ingilis dillərdə mötəbər kürsülərdəki səlis nitqləri ilə bir tərəfdən azərbaycanlı olduğu, bizim Lider olduğu üçün, digər tərəfdən isə xalqın istəklərini aydın çatdırdığı üçün qürur duyduq.

Bizim Prezidentimiz Azərbaycanın sülhün tərəfində dayandığını bütün dünyaya bəyan etdi. Dünyanı sülhə çağırdı. Ermənistandan dinc yolla torpaqlarımızı qaytarmasını tələb etdi. Liderimiz ikinci yolu da birinci yolla paralel inkişaf etdirirdi. Bu, hərb yolu idi. Dəfələrlə çıxışlarında, beynəlxalq tədbirlərdə açıq şəkildə bildirirdi ki, torpaqlarımız sülh yolu ilə qaytarılmazsa, hərb yolunu seçməli olacağıq. Belə də oldu. İkinci yolun harada və nə vaxt başlayacağını böyük uzaqgörənliklə hazırlayan cənab İlham Əliyev dünyanın qulaqlarının sülh çağırışına kar olduğunu bir daha yəqin edəndən sonra, ikinci yola çıxmağın zamanı çatdığını bəyan etdi. Bu yol Ermənistanın yeni torpaqlar iddiasına dərhal verilən cavabla başlandı. 27 sentyabr 2020-ci il Qarabağın azadlığına gedən yol oldu. Cəmi 44 gün davam edən İkinci Vətən Müharibəsi Azərbaycan xalqının böyük Zəfəri ilə bitdi.

### 90-ların səhvini 2020-də düzəldən LİDER

Qarabağ 1990-cı ildə Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat qruplaşmasının tarixin də, bu xalqın da bağışlamayacağı səhvi idi. Vəzifədə qalmaq, kürsülərini qorumaq üçün rus imperiyasının son qalıqlarına satılan, torpaqlarımızı Ermənistana hədiyyə etməklə yerlərini möhkəmlətmək istəyən bir qruplaşmanın böyük səhvi idi. Bu, səhvdən də çox, ağıla gəlməyən qəbahət idi. Satqınlıq, Vətənə xəyanət, millətə qarşı günah idi. Sən vəzifə üçün bir xalqın dədə-baba yurdunu, əzəli torpaqlarını necə sata bilərsən? Necə razılaşmaq olardı ki, erməni gecənin birində sənin soydaşının qapısında peyda olsun, onu silahın burnunda evindən çıxarıb qışın şaxtasında, ayazında yurdundan qovsun, insanlar yurdsuz, ev-eşiksiz qalsın, illərlə dişi-dırnağı ilə qurub-yaratdığı evini qoyub, dədə-baba ocağını tərk etsin. Nədir ki, sən vəzifədə qalasan, ağılsız olduğun halda hakimiyyəti zəbt edəsən.

Bəli, Qarabağ 90-cı illərin hakimiyyət vurğunlarının qurbanı olmuşdu. Minlərlə insanın ah-naləsini hələ də çiyinlərində daşıyan qruplaşmanın satqınlığının qurbanı olmuşdu. Bunu xalq sonradan bildi, AXC-Müsavat birliyinə etimadını itirdi. Onlarin hakimiyyətdən uzaqlaşmasını tələb etdi. Çünki gözlərinin qarşısında minlərlə şəhid, qazi, məcburi köçkünlükdə əzab çəkən insan vardı. Azərbaycanın işğal olunan baş tacı Qarabağ vardı. Bir də bu işğala görə başını dik tuta bilməyən xalq vardı. Nə vaxt, harada Qarabağdan söz düşürdüsə, başımızı aşağı dikirdik. Utanırdıq torpaqlarımızın işğal altında olmasından. Bütün bunları isə xalqa onlar bəxş etmişdi.

Cənab İlham Əliyev 90-ların səhvinin düzəldilməsi üçün uzun illər mübarizə apardı. 90-cı illərdə iqtisadi tənəzzülə uğrayan ölkənin bu vəziyyətini 1993-cü ildən etibarən aradan qaldıran, Azərbaycanda yeni Azərbaycan yaradan, bu qruplaşmanı xalqın yaxasından qoparıb atan Ümummilli Liderin gələcəyə hesablanmış inkişaf konsepsiyasını 2003-cü ildən uğurla davam etdirən dövlətimizin başçısı böyük zəhmət nəticəsində 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsinə nail oldu.

Ardı Səh. 15





Əvvəli-Səh-14

# Böyük ZƏFƏR: xalqın qürur və namusunun xilasından ötən 5 il

Böyük itkilər verdiyimiz 44 gündə Zəfər qazandıq. Bu itkilərin də səbəbkarları onlardır-AXCP-Müsavat. Onların səhvləri düzəldilsə də, torpaqlarımız azad edilsə də, Böyük Qayıdış başlansa da, yaxın gələcəkdə soydaşlarımız tamamilə ata-baba yurdlarına qayıtsalar da, AXCP-Müsavat birləşməsinin üzvlərinin bu xalqa vurduğu maddi və mənəvi zərər heç vaxt unudulmayacaq. Torpaqlarımızın azad olunmasından sonra onların hələ də ölkədə sifarişli iğtişaş yaratmaq cəhdləri isə xalqımız tərəfindən əsla unudulmayacaq. Çünki onlar müharibə zamanı həmrəy olan, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında birləşən xalqla birlikdə olmadılar. Hələ üstəlik müharibədən sonra yeni iddialarla çıxışlar etdilər. Hanı Xankəndi, hanı Xocalı, deyib, Zəfərimizə kölgə salmaq istədilər. Lakin düşünmədilər ki, bu proseslərin hamısı eyni zamanda ola bilməzdi.



2023-cü ilin 20 sentyabrında birgünlük lokal xarakterli antiterror əməliyyatından sonra ermənilərin könüllü şəkildə Xankəndi, Xocalı və digər yurdlarımızdan çıxmasından sonra isə radikal müxalifət sülhməramlı qüvvələrin nə üçün Qarabağda qaldığını günün əsas mövzusuna çevirdi. Lakin bu dəfə də anlamaq istəmədi ki, axı bunların həlli üçün zaman lazımdır. Özləri də bilə-bilə ki, bu işlər heç də asan deyil, Ermənistanın arxasında havadarları var, lakin yenə də əldə edilmiş qələbəyə kölgə salmaq prinsipindən əl çəkmədilər. Beləliklə, Rusiyanin sülhməramlı qüvvələri Qarabağı tərk etməyə başladıqdan sonra isə mövzuları bitməkdə olan radikal müxalifətə xarici qüvvələrin qrandları hesabına iğtişaş törətmək əmri verildi. Bu dəfə isə "nə edək ki, həm qrandlar əldən çıxmasın, həm də gündəmdə qalaq" prinsipi ilə yeni iddialara başladılar. Toplaşmaq, guya xalqa yol göstərmək fikrinə düşdülər. Göründə ki, toplaşmaq da onların özü kimi 90-larda qalıb, çəkilib bir kənarda dayanmaqdan başqa çarə görmədilər. Bunun ardınca Qazaxın 4 kəndinin azad olunası barədə sənədin inzalanması isə xaricdən ermənilərə havadarlıq edənlər kimi, onlara da tutarlı cavab oldu.

### Neoimperialist ünsürlər olmasa...

Söz yox ki, illərlə regionda sabitliyin, iki qonşu dövlət arasında sülhün bərqərar olmasını istəməyən qüvvələr mövcud olub. Zamanla bunlar dövlətlər olaraq dəyişiblər də. Antiterror əməliyyatından sonra bu qələbəni həzm edə bilmədiklərini açıqca nümayiş etdirənlər Ermənistana hərtərəfli köməklik göstərəcəklərini də açıqca bəyan etdilər. Azərbaycanla Ermənistan arasında vasitəçi olmadan təmas isə onu göstərdi ki, vasitəçisiz diplomatiya, eləcə də neoimperialist qüvvələrin müdaxiləsi olmasa, Azərbaycan və Ermənistan sülhün əldə olunması istiqamətində ciddi nəticələrə imza ata bilərlər.

Xalq olaraq buna bənzər hadisələrin 90-cı illərdə də şahidi olmuşduq. Sovet imperiyasının son tör-töküntüsü də regionu öz təsiri altında saxlamaq üçün eyni siyasəti həyata keçirirdi. Ermənistanın qızışdırılması, sərhədlərimizdə iğtişaşların yaradılması, onların silahlandırılıb torpaq işğal etməyə həvəsləndirilməsinin hər birini vaxtilə müşahidə etmişik. Hansı ki, Ermənistan sivil qaydada davranarsa, öz maraqlarından çıxış edərsə və başqalarının əlində alət olmazsa, regionda davamlı sülh tam şəkildə təmin oluna bilərdi və hazırda da bu, belədir.

Bəs ilahi ədalət? Bunu nə üçün bəzi dövlətlərin görməyə gözü yoxdur? Özlərini demokratiyanın beşiyi adlandıran dövlətlər heç bunun eşiyində belə dayanmağa layiq deyillər axı. Bu nə cür demokratiyadır ki, iki xalqın hansının haqlı, hansının haqsız olduğunu görə bilmədilər? Bir qərinə Azərbaycan torpaqlarını işğal altında saxlayan haqsız Ermənistanın yanında olanlar nə üçün Azərbaycanın dağılan yurdlarını, bir qərinə köçkün həyatı yaşayan insanlarını, məhv edilən dini-mədəni-tarixi abidələri görə bilmədi? Nə üçün illərlə Azərbaycanın haqq səsini eşitmək üçün qulaqları kar oldu? Bu, necə ədalətdir?..



### Xalqın qürur və namusunun xilası

Bu il Zəfərimizin 5 ili tamam olacaq. 2020-ci ildən Prezident İlham Əliyevin liderliyi ilə xalqın itirilmiş torpaqlarının qaytarılması Azərbaycanın Zəfər tarixi adlı yeni xronologiyasını yaradıb. O xronologiya ki, tarixin 270 ildən çox axarını dəyişib göstərdi ki, zaman ona hökm oxuyan şəxsiyyətləri xalqların həyatına bəxş edə bilir. Bəxş edir ki, itirdiklərini yenidən onlara qaytara bilsin.

2024-cü ilin 19 apreli 2020-ci ildən qələbədən qələbəyə addımlayan Azərbaycanın şanlı tarixinə yeni bir hadisəni əlavə etməklə, Zəfər xronologiyasını belə sıraladı: 2020-ci il sentyabrın 27-dən 10 noyabradək Azərbaycanın əldə etdiyi tarixi qələbə - 44 günlük Vətən müharibəsi, 2023-cü il 20 sentyabr antiterror əməliyyatı, 2024-cü il aprelin 18-dən Rusiya sülhməramlılarının Azərbaycandan çıxarılması və 2024-cü il aprelin 19-da Qazaxın 4 kəndinin Azərbaycana qaytarılmasını təsdiq edən birgə bəyanat. Bu, Zəfər, eyni zamanda qürur tarixidir.

Azərbaycan xalqı inandığı, etibar etdiyi, arxalandığı və sevdiyi Lideri ilə xoşbəxt gələcəyə doğru bir yolçuluğa çıxıb. Bu yolçuluqda hər an Ümummilli Liderimiz Heydər Əliyevin parlaq ruhu bizimlədir. Çünki ağsaqqal olan yerdə Allah var, deyərlər. Ata vəsiyyətini reallaşdıran və bunu Şuşanın alındığı gün Bakıda Şəhidlər Xiyabanında böyük qürurla söyləyən Prezidentimiz xalqımızın çoxəsrlik ailə dəyərlərini qoruması ilə də nümunə oldu. Nə xoşdur ki, Qarabağımızı-torpaqlarımızı, şərəf və namusumuzu xilas edən LİDERİMİZ var. Nə xoşdur ki, övladlarımız hər addımı Liderləri və dostları cənab İlham Əliyevdən öyrənir. Öyrənirlər ki, onlar da əsl övlad, əsl vətəndaş ola bilsinlər. Öyrənirlər ki, xalqın qürur və namusunun xilası olan Zəfər tarixi xronologiyasını davam etdirə bilsinlər.

***Mətanət Məmmədova***

SON SƏHİFƏ
SƏS
6 avqust
2025-ci il

# Borcunu qaytarmayanları hansı cinayət məsuliyyəti gözləyir?



*“Borcunu qaytarmayan şəxsi gözləyən cəza borcun mənbəyindən (yəni müqavilədən, məhkəmə qərarından və s.) və vəziyyətin detallarından asılıdır”. Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyin sədri Fariz Əkbərov deyib. Fariz Əkbərov sözlərinə belə davam edib: “Borcun ödənilməməsi birbaşa cinayət məsuliyyəti yaratmır, ancaq mülki və bəzi hallarda inzibati və ya dolayı yollarla cəzalandırma tədbirləri tətbiq oluna bilər.*



## Hüquqşünas mühüm detalları açıqladı

İcra tədbirləri və məhdudiyyətlər

- Əgər şəxs məhkəmə qərarına baxmayaraq borcu qaytarmırsa:
- Ölkədən çıxışa qadağa:
- Bank hesabları dondurula bilər.
- Əmlaklarına və gəlirlərinə həbs qoyula bilər.
- Avtomobilinə, daşınmaz əmlakına və digər aktivlərinə yönəlik tədbirlər görülə bilər.

Aşağıdakı hallarda məsuliyyət artıq cinayət xarakterli ola bilər:

Əgər borclu bilərəkdən aldadaraq borc alıbsa (məsələn, yalan məlumatla və ya qaytarmaq niyyəti olmadan), bu zaman dələduzluq Cinayət Məcəlləsinin 178-ci maddəsi ilə tərkib yarana bilər.

Azərbaycan Respublikasının Mülki Məcəllənin 743.1-cü maddəsinə əsasən, kredit müqaviləsinə görə borcverən pul vəsaitinə mülkiyyət hüququnu müqavilədə göstərilən məbləğdə və şərtlərlə borcalana verməyi, borcalan isə aldığı pul vəsaitini müqavilədə müəyyən edilmiş müddətə faizlərin və (və ya) müqavilədə göstərilən digər ödənişlərin ödənilməsi şərtilə borcverənə qaytarmağı öhdəsinə götürür”.

Qanunvericilikdə borc müqaviləsinin tərəflərin razılaşmasından asılı olaraq, şifahi və ya yazılı qaydada bağlanması göstərilsə də şifahi qaydada bağlanmış müqaviləni məhkəmədə sübut etmək çətindir. Çünki borcun verilməsini təsdiq edən heç bir sübut məhkəmə tərəfindən təmin edilə bilmir. Məhkəmə məhz tərəflərin təqdim etdiyi sübutlara əsaslanaraq iş üzrə yekun qətnamə qəbul edir. Sübutlar sırasına şahid ifadələrini, şahidlərin və tərəflərin iştirakı ilə yazılı aktı, notarial müqavilə və ya imzanın həqiqiliyi təsdiq edilmiş ərizəni aid etmək olar. Hesab edirik ki, hər bir şəxs şifahi qaydada borc verərkən borc alandan ən azı pulun alınmasını təsdiq edən yazılı qəbz tələb etməli və ən azı 2 nəfər şahidin iştirakını təmin etməlidir. Yazılı müqavilənin, xüsusilə notarial müqavilənin olması daha üstün sübut əhəmiyyəti daşıyır. Notarial borc müqaviləsi ona görə üstün hüquqi qüvvəyə malikdir ki, borc tərəflərin və notariusun, və ya bu əməliyyatı təsdiq edən səlahiyyətli şəxsin iştirakı ilə verilir və bağlanmış müqavilədə tərəflərin imzasının həqiqiliyi təsdiq edilir. Mülki Məcəllədə göstərilir ki, borc müqaviləsi predmetinin məbləği üç min manatdan çoxdursa və ya məbləğindən asılı olmayaraq müqavilənin iştirakçısı hüquqi şəxsdirsə, borc müqaviləsi yazılı formada bağlanmalıdır. Bu artıq qanunvericiliyin zəruri tələbidir”.

***Ayşən Vəli***

# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# “Repetitor xidməti məktəb təhsilini əvəz etmir"



“Repetitor təhsili məktəb təhsilini tam əvəz etmir. Amma bəzi hallarda onu gücləndirir. Məktəb təhsili dövlət tərəfindən təsdiqlənmiş tədris proqramı əsasında aparılır. Repetitor isə daha çox imtahana hazırlıq məqsədi daşıyır. Burada dərinləşdirilmiş və intensiv tədris (xüsusən riyaziyyat, kimya, fizika kimi fənlərdə) verilir”. Bunu SİA-ya açıqlamasında təhsil məsələləri üzrə ekspert Rizvan

## MÜNASİBƏT

Fikrətoğlu deyib.

O bildirib ki, məktəb təhsilində əsas proqram, attestat və sosial bacarıqlar mövcuddur: “Ümumiyyətlə, məktəb təhsilində sistemli bilik verilir, şagird etik davranış, sosial münasibətlər, vətənpərvərlik kimi anlayışları da öyrənir. Amma repetitor təhsili əsasən imtahana yönəlik və sistemlilik orada məhduddur. Yalnız seçilmiş fənlər tədris olunur. Hansı qrupu seçirsə, o istiqamətdə də hazırlaşır. Sosial bacarıqlar isə demək olar ki, zəif inkişaf edir”.

Ekspertin fikrincə, repetitor hazırlığı məktəbdə alınan təhsili dəstəkləyir və gücləndirir: “Ən yaxşı təhsil məktəb təhsilidir. Ehtiyac yaranarsa, repetitor dəstəyi ola bilər. Bu kombinasiyada şagird həm proqramı mənimsəyir, həm də imtahanlara səmərəli hazırlaşır. Bu gün ”hansı üstündür?” sualına cavab məqsəddən asılı olaraq dəyişir”. Rizvan Fikrətoğlu əlavə edib ki, məktəb təhsili gələcək mərhələlər üçün hüquqi əsas yaradır: “Burada konkret sistemlilik var. Şagird təkcə akademik bilik deyil, həm də kollektivdə işləmək bacarığı, sosial davranış normalarını öyrənir. Lakin imtahana hazırlaşmaq baxımından repetitor təhsili daha effektiv ola bilər. Bu zaman müəllim şagirdin zəif tərəflərinə fokuslanır. Fərdi və ya kiçik qrupla dərs keçdiyinə görə təkrar və izahat daha dərin olur. Bəzən məktəbdən daha real nəticə əldə edilir”.

***Fatimə Əliyeva***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**

**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**